Xalqın qəzeti!

# Xalq qəzeti

№ 183 (30299) 27 avqust 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Dirçələn Laçın, dirçələn Qarabağ, dirçələn Şərqi Zəngəzur bizim gücümüzü göstərir və onu göstərir ki, biz istədiyimizə hər zaman nail oluruq.**

# Laçında şəhər günü – Qayıdış təntənəsi

## Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Laçına səfəri

### Zabux kəndində görülmüş işlərlə tanışlıq və sakinlərlə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Laçın rayonunun Zabux kəndində görülmüş işlərlə tanış olublar və burada kənd sakinləri ilə görüşüblər.**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 81 hektar olan Zabux kəndinə 245 ailənin köçürülməsi nəzərdə tutulur. İlkin mərhələdə kəndə 223 ailə köçürüləcək. Eyni zamanda, kənd sakinlərinin rahatlığı və məşğulluğu nəzərə alınaraq bir sıra infrastruktur binalarının da inşası həyata keçirilib. Kənddə 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi də inşa edilib.

*(ardı 2-ci səhifədə)*

# Laçında atəşfəşanlıq



**Avqustun 26-da ilk dəfə keçirilən "Laçın Şəhəri Günü"nün yaddaqalan məqamlarından biri də axşam saatlarındakı atəşfəşanlıq olub.**

Möhtəşəm atəşfəşanlığı şəhərin hər bir tərəfindən izləmək mümkün olub. Atəşfəşanlıq böyük maraqla qarşılanıb.

# Milli minatəmizləmə maşını Qarabağda

**Azərbaycan istehsalı olan minatəmizləmə maşını ianə olaraq Qarabağ Dirçəliş Fonduna təqdim olunub.**

Mediaya açıqlamasında iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, Laçın şəhəri günü ölkəmizdə həm də qayğı, mərhəmət və xeyirxahlığa bağlı olan xüsusi günü təcəssüm etdirir: "Məhz belə bir tarixdə Azərbaycan istehsalı olan minatəmizləmə maşınının sahibkarlar tərəfindən ianə olaraq işğaldan azad edilmiş ərazilərimizin təmizlənməsi üçün Qarabağ Dirçəliş Fonduna təqdim olunması qürur və sevinc bəxş edir. Bu işdə əməyi olan hər kəsə təşəkkür edirik!".

*"Xalq qəzeti"*



# Müsyö Makronun utopik revanşizmi

**Fransa BMT Təhlükəsizlik Şurasına "Laçın dəhlizinin bloksuzlaşdırılması" məsələsi üzrə qətnamə layihəsini təqdim etməyə hazırlaşır. Bu barədə "Le Figaro" jurnalının redaktor müavini Jan-Kristof Byüsson özünün məqaləsində məlumat verib. Onun ardınca Prezident Emmanuel Makron "Le Point" nəşrinə müsahibəsində "Laçın dəhlizinin" yüklər üçün açılması üçün təzyiqi davam etdirəcəkləri" ilə bağlı bəyanat səsləndirib. Makronun sözlərinə görə, qətnamənin hazırlanmasında məqsəd "Azərbaycanın Laçın dəhlizini bağlaması səbəbindən aclıqdan əziyyət çəkən Dağlıq Qarabağ sakinlərinə yardım etməkdir".**

### Parisin İrəvana "qorxma, yanındayıq" ismarıcı

Bu, məlum məsələ ilə bağlı Fransanın BMT-yə üçüncü müraciəti olacaq. Həm Makronun açıqlamasından, həm də yerli medianın yaydığı məlumatlardan belə qənaətə gəlmək mümkündür ki, rəsmi Paris BMT TŞ-da anti-Azərbaycan qətnamə layihəsini keçirməkdə israrlıdır. Axı Paris bununla hayların "böyük bacısı" kimi, boynuna düşən qəhmarlıq missiyasını yerinə yetirməyə çalışır. Çox güman ki, BMT TŞ-nin növbədənkənar sonuncu məlum iclasındakı müzakirələrdən və onun haylar üçün acı aqibətindən sonra Makron Administrasiyasının irəvanlı həmkarlarına təsəlliverici ismarıclar yollamaqla bərabər, yeni, "daşdan keçən" sənəd hazırladıqları barədə məlumatı da çatdırıb.

*(ardı 8-ci səhifədə)*



## Krivopuskov amili, "Üsyankar Qarabağ" və İrəvanda seçki

Səhifə ⇨ 6

## 100 yaşlı Ağdam teatrı



Səhifə ⇨ 10

# Fransızsayağı "sülh karvanı"

**Fransa Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı təxribatçı addımlarından əl çəkmir. Bu təxribatçı addımlar xeyli müddətdir ki, sistemli xarakter alıb. Bunu kampaniya da adlandırmaq mümkündür. Dövlətin yürütdüyü siyasətə uyğun olaraq, Fransanın ayrı-ayrı şəhərlərinin merlərinin də bu kampaniyaya qoşulduqlarını desək, yəqin ki, səhv etmərik. Bugünlərdə bunun örnəyi hesab ediləcək hadisə baş verib. Fransa Erməni Təşkilatları İttifaqının (CCAF) xahişi ilə Paris meri Ann İdalqo ölkənin regional icmalarının, guya, dekabrın 12-dən "blokada"da olan Qarabağa "humanitar yardım karvanı" göndərməsi təşəbbüsü ilə çıxış edib. Bu barədə CCAF-ın rəhbəri Murad Papazyan "Facebook" səhifəsində məlumat verib.**

*(ardı 6-cı səhifədə)*



## Muğamat var olan yerdə...



Səhifə ⇨ 10

## Erməni jurnalistin "stəkanda fırtına" yaratmaq istəyi

Səhifə ⇨ 11

# Cənubi Qafqazda sülhə qarşı çıxanlara diplomatik mesaj

**Ümummilli lider Heydər Əliyev demişdir ki, yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir. Ulu öndərin bu fikrini xatırlamağımız heç də təsadüfi deyil. Azərbaycan işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işləri aparır. Həyata keçirilən genişmiqyaslı tədbirlərin məğzini yeni yolların salınması təşkil edir. Artıq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları böyük yol qovşaqlarını xatırladır. Qətiyyətlə deyə bilərik ki, həmin qovşaqlar ölkəmizin gücünün, qüdrətinin, əzəmətinin göstəriciləri kimi çıxış etməkdədir. Əzəmət qənaət formalaşdırır - Azərbaycan bölgəyə həyat gətirir.**

***

Bəli, Azərbaycan həyat bəxş edən ölkədir. Bu düşüncə Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "Twitter" paylaşımı ilə yenidən aktuallaşdı. Əvvəlcə H.Hacıyevin Qarabağ yolçuluğu zamanı paylaşdığı kiçik videogörüntüyə yazdığı fikirləri diqqətə çatdıraq. "Zəngilan hava limanından Laçına doğru. Yeni yol çəkilir. Azərbaycan yollarda sədlər və maneələr yaradan digər ölkələrdən fərqli olaraq, yollar inşa edir və ələqələrin yaxşılaşmasını təmin edir. Yol sivilizasiyanın mədəni və mühüm komponentidir".



*(ardı 8-ci səhifədə)*

## Koreya yarımadasında "hərarət" artır



Səhifə ⇨ 11

# Zabux kəndində görülmüş işlərlə tanışlıq və sakinlərlə görüş

(əvvəli 1-ci səhifədə)

Zabuxda evlərin, sosial obyektlərin və küçələrin işıqlandırılmasında "yaşıl enerji"dən istifadə edilir. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, kənddə bütün işlər ən yüksək səviyyədə yerinə yetirilib.

Qeyd edək ki, artıq avqustun 25-də 20 ailə - 88 nəfər doğma yurdlarına - Zabux kəndinə qayıdıb.

Dövlətimizin başçısı və birinci xanım kənd sakinləri ilə görüşüb söhbət etdilər.

**Prezident İlham Əliyev**: Salaməleyküm.

**Sakinlər**: Salam. Xoş gəlmisiniz, cənab Ali Baş Komandan. Xoş gördük.

**Sakin (Mehriban xanıma)**: Təbrik edirik.

**Mehriban xanım Əliyeva:** Sağ olun.

**Sakinlər:** Yaratdığınız bu cənnətə xoş gəlmisiniz.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Qadın sakin (Mehriban xanıma)**: Sizi təbrik edirəm. 100 yaşayın, Allah Sizə cansağlığı versin.

**Mehriban xanım Əliyeva**: Çox sağ olun. Hər kəsə Allah cansağlığı versin.

**Prezident İlham Əliyev:** Sizi təbrik edirəm, Vətəninizə xoş gəlmisiniz.

**Sakinlər:** Sağ olun, Allah Sizi var eləsin. Bura Sizin yaratdığınız cənnətdir, biz gəlmişik.





**Prezident İlham Əliyev**: 31 ildən sonra.

**Sakin**: Bəli, Allah köməyiniz olsun. 31 il 102 gündür ki, mən bura gəlməmişəm. Bu gün buradayam.

**Prezident İlham Əliyev**: Hansı tarixdə Zabuxdan çıxmısınız?

**Sakin**: 1992-ci il mayın 16-da çıxmışam.

**Prezident İlham Əliyev**: Hələ Laçın şəhəri işğal olunmamışdı. Buranı işğal etdilər, ondan sonra.

**Sakin**: Bəli. Allah Sizə ömür versin.

**Prezident İlham Əliyev**: Bu illər ərzində harada yaşayırdınız?

**Sakin**: Bu illər ərzində Sarıqayada yaşamışam, sonra Sumqayıtda yataqxanada yaşamışam. İndi də Quba yolunun üstündə fərdi evim var, orada yaşamışam.

**Prezident İlham Əliyev**: Artıq vətəndəsiniz. Bundan böyük xoşbəxtlik ola bilməz. Zabux kəndi də tamamilə yeni görkəm alır.

**Sakin**: Çox sağ olun, Allah köməyiniz olsun. Cənnət yaratmısınız. Allah razı olsun.

**Prezident İlham Əliyev**: Siz dünən gəlmisiniz, birinci köçənlərdənsiniz. 31 ildən sonra artıq vətəndaşlarımız öz dədə-baba torpaqlarına qayıdırlar. Bundan böyük xoşbəxtlik ola bilməz. Əminəm ki, siz də hər zaman inanırdınız ki, bu gün gələcək.



**Sakin**: Gəldi, Sizin sayənizdə. Allah Sizə ömür versin. 44 günlük müharibədə kütləvi informasiya vasitələrində Sizin gördüyünüz iş böyük bir jurnalist ordusunun, böyük bir müxbir ordusunun işi idi. Hamını öz yerində oturtdunuz. Bu gün bizim üçün həm də gözəl günlərdən biridir ki, Mehriban xanımın ad günüdür. Biz hamımız Mehriban xanıma uzun ömür, cansağlığı arzulayırıq. Allah ömür versin. Əskik olmasın.

**Prezident İlham Əliyev**: Bu gün Laçın Şəhəri Günüdür. Çünki 26 avqust - keçən ilin bu günündə ordumuz Laçın şəhərinə daxil oldu. Beləliklə, 26 avqust bundan sonra Laçın Şəhəri Günü kimi qeyd olunacaq. Azad edilmiş bütün şəhərlərimizin şəhər günləri təsis edildi. Mənim Fərmanımla növbəti bayram tədbirləri oktyabrın 17-də Füzuli şəhərində olacaq.

**Sakin**: İnşallah. Zəfərlərimiz bol, bayrağımız uca olsun.

**Yaşlı qadın**: Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev**: Sən də xoş gəlmisən.

**Yaşlı qadın**: Allah canınızı sağ eləsin. Sizdən bircə xahişim var. Mənim oğlum rəhmətə gedib, mənim olduğum otağı verirəm ölən oğlumun yoldaşına, təşkil edəsiniz.

**Prezident İlham Əliyev**: Mehriban xanım nə lazımdırsa, onu həll edər.

**Qadın sakin**: Oğlu rəhmətə gedib. İstəyir ki, onun oğlu, uşağı, ailəsi buna yaxın olsun.

**Prezident İlham Əliyev**: Gəlsinlər buraya?

**Sakin**: Hə, gəlsinlər buraya yaxın olsun.

**Prezident İlham Əliyev**: Gəlsinlər, əlbəttə.

**Mehriban xanım Əliyeva**: Onlar indi haradadırlar?

**Sakin**: Xırdalanda.

**Prezident İlham Əliyev**: Onlar, əlbəttə, gələcəklər. Yəni, bütün zabuxlular gələcək. Eviniz necədir, rahatdır?

**Sakinlər**: Rahatdır. Hər şey yaxşıdır.

**Prezident İlham Əliyev**: Nənənin yaxın qohumları da gələcək yəqin ki, bir müddətdən sonra. Xahişi odur ki, onların da yeri ona yaxın olsun. Onu təşkil edərsiniz.

**Rövşən Rzayev**: Baş üstə.

**Prezident İlham Əliyev**: Bütün zabuxlular qayıdacaq. Yəni, mən şübhə etmirəm. Çünki biz bu inşa işlərinə start verəndə mən dedim ki, keçmiş köçkünlər arasında sorğu keçirilsin. Mənə verilən məlumata görə, bütün əksər köçkünlər, onların mütləq əksəriyyəti qayıtmağa qərar vermişdir. Ona görə zabuxlular da qayıdacaqlar. Çünki bəzi evlərdə hələ ki, tamamlama işləri gedir.

**Yaşlı qadın**: Allah o gözəl atana rəhmət eləsin. Amin.

**Prezident İlham Əliyev**: Allah bütün ölənlərimizə, şəhidlərimizə rəhmət eləsin. Onların sayəsində, Ordumuzun sayəsində biz bu gün buradayıq. Siz bu divarı çəkmisiniz?

**Rövşən Rzayev:** Bəli, istinad divarları çəkilib.

**Prezident İlham Əliyev**: İstinad divarı, amma çaya da giriş olmalıdır.

**Rövşən Rzayev**: Çaya bu bulaqdan ayrıca giriş gedir, bu bulaq tərəfdən, onun arxasından.

**Prezident İlham Əliyev**: Yox, çaya yaxınlaşmaq üçün. Mən baxıram, siz divarı belə bütöv çəkmisiniz, insanlar çaya yaxınlaşa bilmirlər, siz girişlər edin. Siz müxtəlif yerlərdə açın bu divarları ki, belə pilləkən düzəldin, yaxud da belə geniş olsun ki, insanlar çaya yaxınlaşa bilsinlər.

**Rövşən Rzayev**: Baş üstə.

**Məsim Məmmədov**: Bu çay da bizim Həkəri kimi genişləndirilib, dərindən çıxarılıb ki, bir az geniş olsun.

**Prezident İlham Əliyev**: Əlbəttə, siz elə yaxın zamanlarda açın ki, giriş olsun.

**Məsim Məmmədov**: Baş üstə.



**Prezident İlham Əliyev**: Uşaqlar, yaşlı insanlar buraya - çayın qırağına rahat gəlsinlər, burada sərinləsinlər, balıq tutsunlar.

**Sakin**: Allah ömür versin, maşallah, Sizin sayənizdə Zabux kəndini bütün BMT-dən belə tanıyırlar. Bütün dünyada artıq Zabux kəndi məşhur kənddir. Allah Sizə ömür versin. Çox sağ olun.

**Prezident İlham Əliyev**: Ermənilər gəlib burada qanunsuz yerləşmişdilər, özü də deyirdilər ki, buradan çıxmırıq. Yəqin ki, o kadrları görmüsünüz.

**Sakinlər**: Hamısını görmüşük, izləmişik. Allah Sizə ömür versin.

**Prezident İlham Əliyev**: Bir eybəcər də ad vermişdilər. Gəlin, şəkil çəkdirək.

***

Xatirə şəkilləri çəkdirilir.

***

**Sakinlər**: Yaddaşlarda qalan xatirədir, gözəl xatirədir. Bütün evlərdə, hamıda olacaq, inşallah.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Sakinlər**: Allah köməyiniz olsun.

**Prezident İlham Əliyev**: Yəqin ki, yaxın bir neçə aya bütün zabuxlular gələcəklər.

**Sakin**: İnşallah, gələcəklər.

**Sakinlər**: Ad gününüz mübarək. Sizin sayənizdə gözəl bayram yaşayırıq.

**Prezident İlham Əliyev**: Salamat qalın, bütün şəhər də hazırdır, yəqin ki, gedib görəcəksiniz, ora da gözəl şəhər olubdur.

**Sakinlər**: İnşallah, gedib görəcəyik. Bu gün çox böyük bir sevinc, qürur hissi keçiririk.

**Prezident İlham Əliyev**: Laçın şəhərinə mən keçən ilin sentyabr ayında gələndə dağılmış vəziyyətdə idi.

**Sakin**: İndi, şükür Allaha. Ulu Öndərimiz həmişə hər çıxışında belə cümlələr işlədirdi ki, vaxt olacaq, zaman gələcək, qaçqın və məcburi köçkünlər öz yurdlarına qayıdacaqlar. O gün məhz elə bu gündür ki, biz buradayıq.

**Prezident İlham Əliyev**: Bəli, həmin gündür.

**Sakin**: Sevincdən kövrəlirik. Çox şükür, bunu da Siz davam etdirdiniz. Çox sağ olun.

**Prezident İlham Əliyev**: Buranı ermənilər zəbt etmişdilər, burada qanunsuz məskunlaşma aparmışdılar, xaricdən erməniləri gətirmişdilər və burada özləri üçün evlər tikmişdilər. Onların heç biri də qalmayıb. Mən dedim, buraya gələn zabuxlular Azərbaycan dövləti tərəfindən tikilən evlərdə qalmalıdırlar.

**Sakin**: Çox sağ olun, minnətdaram.

**Prezident İlham Əliyev**: O evlər artıq tarixin qara səhifəsində qaldı. Laçın şəhəri də tamamilə dağılmış vəziyyətdə idi. İndi yəqin ki, gedib görərsiniz, necə gözəl şəhər olub, dünya miqyasında.

**Sakin**: Düzdür, müəyyən qüvvələr var idi, xarici qüvvələr, ancaq buna baxmayaraq, Siz bunların hamısının qabağını tək-tənha aldınız, layiqincə cavablandırdınız. Hamısını oturtdunuz yerinə. Yəni, bu, əsas bir tarixi gündür.

**Sakin:** 44 günlük müharibədə Qələbə tarixi gündür.

**Prezident İlham Əliyev**: Düzdür, ermənilər heç bir rayonu qaytarmaq fikrində deyildi. Amma danışıqlarda deyirdilər ki, bəli, beş rayonu biz qaytarmağa hazırıq, amma Laçın və Kəlbəcər bizim nəzarətimizdə qalmalıdır. Çünki bunların strateji yerləşməsi təhlükəsizlik nöqteyi-nəzərindən önəmlidir. Laçın, Kəlbəcər rayonlarının strateji əhəmiyyəti çox böyükdür.

**Sakin**: Sizin bir sözünüz var idi, möhtərəm Prezident, deyirdiniz, elə bil buradan vəhşi qəbilə keçib.

**Prezident İlham Əliyev**: Bəli.

**Sakin**: Doğrudan da biz rayona gələndə gördük ki, vəhşi qəbilə də yalan imiş onların yanında, elə bil daşları da yeyiblər.

**Prezident İlham Əliyev**: Bəli, siz gördünüz, bütün evlər darmadağın idi, hər yeri viran qoyub gediblər - Ağdamı, Füzulini, Cəbrayılı, Qubadlını. Siz indi o yolla – Qubadlıdan gəlmisiniz, görmüsünüz, bir dənə də salamat bina yoxdur, nə şəhərdə, nə kəndlərdə.

**Sakinlər:** Bəli, o yerlərdə heç nə yoxdur. Amma bütün dünyanın görmədiyini, etmədiyini Siz təkbaşına etdiniz, hamısı ilə döyüşə-döyüşə. Hamısı Zabux kimi belə düzələcək.

**Prezident İlham Əliyev**: İndi də Ermənistanın bəzi xarici havadarları bunu görmək istəmirlər. Sanki bu işğal olmayıb, sanki bu vəhşilik, düşmənçilik olmayıb. Otuz il ağzına su alıb susanlar, yaxud da ki, erməni işğalına bəraət qazandıranlar, indi gəlib bizə qarşı iddia qaldırırlar, irad tuturlar, ittiham edirlər. Biz qurub-yaradan xalqıq. Erməninin otuz il dağıtdığını biz iki ilə artıq qururuq, qurmuşuq, insanlar qayıdıblar. Biz öz torpağımızdayıq. Bura da əzəli Azərbaycan torpağı olub. İşğal dövründə hansı eybəcər ad verirsən-ver, onun əhəmiyyəti yoxdur. O ad da onların başına dəydi, elə onlarla da cəhənnəmə getdi.

**Sakin:** Onları iti qovan kimi qovdunuz.

**Prezident İlham Əliyev**: Sağ olun. Salamat qalın, xoşbəxt yaşayın.

**Sakinlər**: Sağ olun, Allah razı olsun.

**Sakin:** Bu, kəndimizin ağsaqqalıdır.

**Prezident İlham Əliyev**: Salaməleyküm.

**Sakin:** Əleykümə̈ssalam. Sizi xoş gördük. Allah Sizin yolunuzu hər zaman açıq etsin, başınız uca olsun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Həmişə dediyiniz kimi, nəyi nə vaxt, harada etməyi Siz bilirsiniz. Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ ol. İndi Vətənə qayıtmısınız. Təbrik edirəm.

**Sakin:** Bəli, böyük gündür. Çox sağ olun, minnətdaram.

**Prezident İlham Əliyev:** Təbrik edirəm. Sağ ol.

**Sakin:** Bütün xalqımıza qismət olsun əmin-amanlıq, Sizin sayənizdə öz yerimizə-yurdumuza qayıtmışıq, çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Küçə boyunca evlər hazırdır?

**Sakin:** Bəli. İlk köçmə mərhələdə.

**Prezident İlham Əliyev:** Salaməleyküm.

**Digər sakin:** Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ ol, xoş gördük, salaməleyküm.

**Sakin:** Allah Sizə uzun ömür, cansağlığı versin, bu xoşbəxtliyi bizə qismət etdiyinizə görə, sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Necə hiss edirsiniz özünüzü doğma torpaqda?

**Sakin:** Çox əla, bəli, doğma torpaqda. Allah Sizə uzun ömür, cansağlığı versin.

**Prezident İlham Əliyev:** Sağ olun. Gəl şəkil çəkdirək. Dünən gəlmisiniz?

**Sakin:** Bəli, dünən gəlmişik.

*(ardı 3-cü səhifədə)*

# Zabux kəndində görülmüş işlərlə tanışlıq və sakinlərlə görüş

(əvvəli 2-ci səhifədə)

**Prezident İlham Əliyev:** Harada yaşayırdınız bu vaxta qədər?

**Sakin:** Sumqayıt şəhərində.

**Prezident İlham Əliyev:** Şəraitiniz necə idi?

**Sakin:** Orada yataqxanada yaşayırdıq.

**Prezident İlham Əliyev:** Bura necədir, yaxşıdır?

**Sakin:** Çox əladır. Allah Sizə ömür versin.

**Mehriban xanım Əliyeva:** Salam, təbrik edirəm.

**Sakin:** Mehriban xanım, bu gün Sizin ad gününüzdür. Sizi də təbrik edirik. Allah Sizə uzun ömür, cansağlığı versin.

**Mehriban xanım Əliyeva:** Sağ olun.

**Sakin:** Bütün Azərbaycan qadınları adından təbrik edirik.

**Mehriban xanım Əliyeva:** Sağ olun, çox sağ olun.

**Prezident İlham Əliyev:** Siz harada yaşayırdınız?



**Sakin:** Abşeronda, cənab Prezident.

**Prezident İlham Əliyev:** Biz gəlmişik sizinlə görüşə.

**Sakinlər:** Salam. Xoş gəlmisiniz. Allah Sizə ömür versin, Allah Sizi saxlasın. Çox şadıq.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Sizinlə görüşməyi çox istəmişəm. Mən həmişə Sizinlə fəxr etmişəm, başımızın tacısınız.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.

**Sakin:** Bu gün 30 illik arzumuza axır ki, son qoyduran Sizsiniz. Allah atanıza da rəhmət eləsin, həmişə başımızın üstündə ucalarda olasınız.

**Prezident İlham Əliyev:** Sağ olun. Hamımız xoşbəxt günlər yaşayırıq.

**Sakinlər:** Biz Sizin sayənizdə çox xoşbəxtik. Allah Sizə ömür versin. Ömrünüz uzun olsun. Həmişə var olasınız.

**Prezident İlham Əliyev:** Sağ olun, bura necədir?

**Sakinlər:** Çox yaxşı, əla.

**Prezident İlham Əliyev:** Dünən gəlmisiniz, hələ ki, yerləşirsiniz. Doğma torpaqda yaşamaq, əlbəttə, böyük xoşbəxtlikdir.

**Sakin:** Bəli. Mehriban xanımı da təbrik edirik, ad günü münasibətilə.

**Mehriban xanım Əliyeva:** Sağ olun, çox sağ olun.

**Prezident İlham Əliyev:** Harada yaşayırdınız?

**Sakin:** Bakıda, Pirşağıda yataqxanada.

**Prezident İlham Əliyev:** İndi artıq doğma torpağında və bu gözəl evdə, gözəl kənddə.

**Sakin:** Gül kimi yerimiz, bəli, bəli.

**Prezident İlham Əliyev:** Laçın şəhəri də indi çox gözəl şəhərə çevrilib.

**Sakin:** Allah Sizə ömür versin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Bu gecə öz ana torpağımızda, öz yerimizdə çox rahat olmuşuq.

**Digər sakin:** Nəvəmdir.

**Prezident İlham Əliyev:** Sən necə gəldin? Həvəslə gəlmisən buraya? Uşaqlar görəcəklər Zabux torpağının havasının ləzzətini.

**Sakin:** 37 il burada yaşamışam, indi 68 yaşım var, təqaüddəyəm. Allah Sizə ömür versin, Sizin sayənizdə hər şey yaxşıdır.

**Prezident İlham Əliyev:** Sağ olun, salamat qalın.

**Sakin:** Çox sağ olun.

**Digər sakin:** Cənab Prezident, şəkil çəkdirmək olar Sizinlə?

**Prezident İlham Əliyev:** Gəl çəkdirək. Salaməleyküm, xoş gördük.

**Kişi sakin:** Xoş gördük.

**Prezident İlham Əliyev:** Xoş gəlmisiniz.

Salam. Təbrik edirəm.

**Sakin:** Salam, xoş gəlmisiniz. Çox sağ olun. Allah Sizi qorusun. Bu sevinci bizə bəxş etdiyiniz üçün təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun, xoşbəxt yaşayın.

**Sakinlər:** Sağ olun, çox sağ olun, Allah köməyiniz olsun. Minnətdarıq, təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Salam.

**Sakin:** Xoş gəlmisiniz. Allah Sizə dəyməsin.

**Prezident İlham Əliyev:** Sağ olun. Siz də xoş gəlmisiniz.

**Sakin:** Uzun illərin həsrətinə son qoydunuz, bizə sevinc yaşatdınız. Çox sağ olun, Allah-taala Sizə uzun ömür versin.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun. Sizə də uzun ömür, xoşbəxtlik, doğma diyarında xoşbəxt həyat arzulayıram.

**Sakinlər:** Çox sağ olun, çox razıyıq. Allah uzun ömür versin Sizə.

**Prezident İlham Əliyev:** Harada yaşayırdınız işğal dövründə?

**Sakin:** Sumqayıtda.

**Prezident İlham Əliyev:** Sumqayıtda, hansı şəraitdə? Dövlət tərəfindən verilmiş evdə, yoxsa?

**Sakin:** Yataqxanada yaşayırdıq.

**Prezident İlham Əliyev:** Yəni, bütün işğal dövründə yataqxanada? Siz buradan çıxanda birbaşa oraya getmişdiniz?



**Sakin:** Xeyr, bir neçə yerdə olduq, axırda orada.

**Prezident İlham Əliyev:** Sumqayıtda.

**Sakin:** İndi çox şükür ki, öz Vətənimizdə, öz evimizdə, öz obamızdayıq. Çox şükür, lap razıyıq, ailəliklə minnətdarıq Sizə, çox sağ olun.

**Prezident İlham Əliyev:** Laçın rayonu da indi inkişaf edir, Laçın şəhəri də gözəl şəhərlərimizdən biridir. İndi yəqin gedib görəcəksiniz.

**Sakin:** Hər şey mükəmməldir, əla, dünən gördük. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Hə, getdiniz baxdınız?

**Sakin:** Çox yaxşı qarşıladılar. Çox hörmət etdilər. Çox sağ olsunlar, sağ olun.

**Prezident İlham Əliyev**: İndi yerləşirsiniz burada.

**Sakin:** Sağ olun, Allah Sizə dəyməsin.

**Prezident İlham Əliyev:** Sağ olun, cansağlığı arzulayıram. Salaməleyküm.

**Sakin:** Salam, cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev**: Siz də xoş gəlmisiniz.

**Sakin:** Gəlişinizlə bizə şərəf verdiniz. Bizə bu gözəl günü yaşatdığınız üçün Allah sizləri var eləsin.

**Prezident İlham Əliyev**: Təbrik edirəm sizi.

**Sakin:** Çox sağ olun. Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev**: Necədir?

**Sakin:** Şükür, min şükür, çox əla.

**Prezident İlham Əliyev**: Doğma kənddə.

**Sakin:** Bəli.

**Prezident İlham Əliyev**: 31 ildən sonra.

**Sakin:** Bizə həyatı yaşatdınız yenidən, çox sağ olun, var olasınız.

**Prezident İlham Əliyev:** Allaha şükür, kənd də gözəldir.

**Sakin:** Allah bütün şəhidlərimizə rəhmət eləsin. Sizlərə də cansağlığı.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin. Sizə cansağlığı, xoşbəxt yaşayın, qurun, yaradın.

**Sakin:** Çox sağ olun. Xanımın da ad günüdür, təbrik edirik.

**Prezident İlham Əliyev:** Uşaqlar da ilk dəfə görürlər də yəqin ki, Laçını, Zabux kəndini. Necədir? Cavanlar həvəslə gəliblər?

**Sakin:** Bəli, bəli. Çox razı qaldıq. Allah sizləri var eləsin.

**Prezident İlham Əliyev:** Yəqin ki, şəhərdə yaşamısınız? Bakıda?

**Sakin:** Sumqayıtda.

**Prezident İlham Əliyev:** Əminəm ki, burada görəcəksiniz ki, bax bu şərait nə qədər gözəldir. Əsas odur ki, insan öz doğma torpağında yaşayır, azad edilmiş torpaqda yaşayır və qürurla yaşayır.

**Sakin:** Biz də şəkil çəkdirək?

**Prezident İlham Əliyev**: Bəli, gəlin şəkil çəkdirək.

**Sakin:** Xanımı da təbrik edirik.

**Mehriban xanım Əliyeva:** Salam, mən də sizi təbrik edirəm, çox sağ olun.

***

Şəkil çəkdirirlər.

***

**Prezident İlham Əliyev**: Sağ olun.

**Sakin:** Xoş gördük, cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Sakinlər:** Təbrik edirik, sağ olun.

**Mehriban xanım Əliyeva**: Çox sağ olun.

**Prezident İlham Əliyev**: Salam, təbrik edirəm.

**Sakin:** Salam, çox sağ olun.

**Prezident İlham Əliyev**: Salam, bala.

**Sakin:** Sağ ol, denən "sağ ol baba". Sağ olun, Allah canınızı sağ eləsin.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Sakin:** Başımızın üstündən əskik olmayasınız.

**Prezident İlham Əliyev**: Salam, təbrik edirəm.

**Sakin:** Təbrik edirik, çox sağ olun. Minnətdarıq.

**Prezident İlham Əliyev**: Gəlin şəkil çəkdirək.

**Sakin:** Baba ilə şəkil çəkdir.

**Prezident İlham Əliyev**: Sənin yaxşı kurtkan var idi, çıxardın onu? Azərbaycan yazılmışdı.

**Sakin:** Sağ olun, Allah canınızı sağ eləsin.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Sakin:** Gəlin bəri, gəlin bəri.

**Prezident İlham Əliyev**: Salam, xoş gördük. Xoş gəlmisiniz.

**Sakin:** Salam, xoş gəlmisiniz, xoş gördük.

**Prezident İlham Əliyev**: Salaməleyküm.

**Sakin:** Xoş gördük, xoş gördük. Həmişə Siz gələsiniz bizim kəndimizə.

**Prezident İlham Əliyev**: Salaməleyküm, salam, salam.

**Sakin:** Gəl buraya, gəl İlham babanın yanında dur.

**Prezident İlham Əliyev**: Biz artıq şəkil çəkdirmişik onunla.

**Sakin:** Gəl bura, burada dur.

**Prezident İlham Əliyev**: Harada yaşayırdınız bu vaxta qədər?

**Sakin:** Şirvanda. Dədə-baba yurdumuzdur, gəlmişəm. Neçə aydır, 32 ildir buradan getmişdim, bu axşam heç yatmamışam. Allah köməyiniz olsun. Sizin sayənizdə hamısı olub.

**Prezident İlham Əliyev**: Xoşbəxt günlər yaşayın.

**Sakin:** Bizdən çox siz əziyyət çəkmisiniz.

**Prezident İlham Əliyev**: Bütün xalqımız sizin sevincinizə şərikdir.

**Sakin:** Cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Sakin:** Bu gün qürurlu, başıucayıq ki, bəli, bu torpaqlar artıq bizdədir. Var olun, cənab Prezident!

**Prezident İlham Əliyev**: Sağ olun.

**Sakin:** Mənim nəvəmin də sözü var.

**Prezident İlham Əliyev**: Hə, buyur.

**Uşaq:** Hörmətli cənab Prezident, Ali Baş Komandan, hörmətli Birinci vitse-prezident Mehriban xanım, sizləri doğma kəndimiz Zabuxda gördüyümüzə görə çox şadıq. Cənab Prezident, biz şagirdlərə belə gözəl məktəb tikdirdiyiniz üçün Sizə təşəkkür edirik.

**Prezident İlham Əliyev**: Sağ ol, çox sağ ol.

**Sakin:** Allah canınızı sağ eləsin.

**Prezident İlham Əliyev**: Təbrik edirəm sizi. Xoş gəlmisiniz vətəninizə.

**Sakin:** Belə gözəl yerdə belə gözəl kənd salmısınız.

**Digər sakin:** Cənab Prezident, laçınlılar da Sizi çox istəyirlər. Elə bir neçə il öncə Siz ad gününüzü Taxtakörpü qəsəbəsində laçınlılarla qeyd etmisiniz. Bu gün də Mehriban xanımın ad günüdür. Fürsətdən istifadə edib bütün kənd sakinləri adından ad gününü təbrik edirik.

**Prezident İlham Əliyev:** Bəli, düz deyirsiniz. O vaxt demişdim ki, gün gələcək və siz doğma torpağınıza qayıdacaqsınız. Bax, o gün gəldi.

**Sakinlər:** O gün elə bu gündür. Sağ olun. Allah canınızı sağ eləsin.

**Prezident İlham Əliyev:** Təbrik edirəm, sağ olun.

**Sakin:** Mən də istəyirəm Sizinlə şəkil çəkdirəm.

**Prezident İlham Əliyev:** Gəlin şəkil çəkdirək.

**Sakin:** Biz hamımız Sizi çox istəyirik, Sizə inanırıq, Sizə güvənirik.

**Prezident İlham Əliyev:** Sağ olun, salamat qalın. Sağ olun, cansağlığı, uzun ömür.

**Mehriban xanım Əliyeva:** Yenə qonaq gələcəyəm.

**Sakin:** Allah canınızı sağ eləsin.

**Prezident İlham Əliyev:** Sağ olun, cansağlığı.

**Mehriban xanım Əliyeva:** Sağ olun.

# Həkəri çayı sahilində "Laçın Şəhəri Günü" şənliyi

## Dövlətimizin başçısı tədbirdə çıxış edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində iştirak ediblər.**



Qeyd edək ki, Həkəri çayının sahilində, Bulvar ərazisində Uşaq İncəsənət Festivalının yay düşərgəsində finala çıxmış şagirdlərin rəssamlıq, dekorativ-tətbiqi sənət və digər istiqamətlər üzrə əsərlərinin təqdimatları olub. Burada, həmçinin Laçın mətbəxindən nümunələr təqdim edilib, "Hünər meydanı"nda zorxana, pəhləvanlar və kəndirbazların çıxışları olub, qiraətçilər laçınlı şairlərin şeirlərini səsləndiriblər.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

– Əziz laçınlılar, əziz dostlar.

İlk növbədə, laçınlıları Şəhər Günü münasibətilə ürəkdən təbrik edirəm. İlk dəfədir ki, Laçında Şəhər Günü keçirilir, böyük təntənə ilə, böyük coşqu ilə keçirilir. Bildiyiniz kimi, azad edilmiş ərazilərdə bir müddət bundan əvvəl mənim Sərəncamımla şəhər günlərinin keçirilməsi haqqında qərar qəbul olunmuşdur, Şəhər günləri təsis edilmişdir. Şəhər günləri şəhərlərimizin azad edilməsi günləridir. Laçın şəhəri isə 26 avqust tarixində tamamilə azad edilmişdir.

İkinci Qarabağ müharibəsi nəticəsində dekabrın 1-də Laçın rayonu işğaldan azad edildi, ancaq Laçın şəhəri və iki kənd – Zabux və Sus kəndləri bizim nəzarətimizdə deyildi. Ona görə ki, keçmiş Laçın dəhlizi bu şəhərdən, bu kəndlərdən keçirdi. Biz qısa müddət ərzində yeni yol çəkərək həm Laçına, həm də Zabux və Sus kəndlərinə qayıtdıq və bu gün səhər zabuxlularla mənim görüşüm olub. Onlar dünən axşam uzun fasilədən sonra – 31 ildən sonra öz doğma kəndlərinə qayıdıblar və artıq burada yaşayırlar. Laçınlılar isə mayın 28-dən etibarən artıq buradadırlar. Mayın 28-də - Müstəqillik Günündə mən birinci qrup laçınlılara onların evlərinin açarlarını təqdim etdim və beləliklə, Laçının dirçəliş dövrü başlamışdır. O vaxtdan bu günə qədər 1000-ə yaxın Laçın sakini şəhərdə məskunlaşmış və ilin sonuna qədər 900 ailə üçün evlər hazır olacaq. Yəni, bu ilin sonuna qədər bir neçə min həm şəhər sakini, həm kənd sakini Laçında yaşayacaq. Bu, böyük xoşbəxtlikdir. Bu xoşbəxtliyi bizə bəxş edən bizim müzəffər Silahlı Qüvvələrimizdir. Fürsətdən istifadə edərək bütün şəhidlərimizin əziz xatirəsini hörmətlə yad edir, onlara Allahdan rəhmət diləyirik. Onların qanı-canı bahasına, qəhrəman övladlarımızın şücaəti hesabına bu gün biz buradayıq, bu gün biz doğma torpağımızda bayram şənlikləri keçiririk. Bundan böyük xoşbəxtlik ola bilməz.

Laçının işğala məruz qalması böyük faciə idi, həm laçınlılar üçün, həm bütün Azərbaycan xalqı üçün. Hər bir kəndin, şəhərin işğala məruz qalması böyük faciə idi, amma Laçının işğalı strateji nöqteyi-nəzərindən böyük bir sınaq idi, böyük bir fəlakət idi. Çünki beləliklə, Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradılırdı və bizim sonrakı itkilərimizin başlanğıcı məhz Şuşa və Laçının itirilməsi idi. May ayı müstəqil Azərbaycanın tarixində bu iki faciəvi günlə əlaqəli idi. Yəni, bizim müstəqil həyatımızda may ayı faciəli bir ay idi - çünki 8 mayda Şuşa, 18 mayda Laçın işğal edildi. İşğal bizi içəridən sarsıdırdı və bu işğal digər torpaqlarımızın işğal altına düşməsinin başlanğıcı idi. Çünki birinci Şuşa, ondan sonra Laçın işğal olunmuşdur.

Bu gün biz həm Şuşada, həm Laçında toy-bayram edirik, həm də sakinlər qayıdıb, həyat qayıdıb. Bu gün səhər uşaqlarla bir neçə tədbirdə iştirak edirdim. Onlardan soruşurdum, həm Zabuxda, həm Laçın şəhərində, siz Bakıdan, Sumqayıtdan, digər yerlərdən gəlmisiniz, darıxmırsınız? Xeyr dedilər. Biz öz doğma torpağımızda qürurla yaşayırıq. Hər bir laçınlı, hər bir keçmiş məcburi köçkün bu gün qürur hissi ilə yaşayır. Hər bir azərbaycanlı, Azərbaycanın hər bir yerində bütün Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları qürur hissi ilə yaşayırlar ki, biz tarixi Zəfər çalaraq bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini göstərdik və öz doğma torpağımıza qan tökərək qayıtmışıq. Danışıqlar yolu ilə bunu etmək mümkün deyildi və müharibə yeganə çıxış yolu idi. Biz ədalətli müharibə aparmışıq, biz öz torpağımızda vuruşmuşuq, savaşmışıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, ancaq öz torpağımızı biz heç kimə verən də deyilik. Bu məsələ ilə bağlı hələ işğal dövründə dəfələrlə mən Azərbaycan dövlətinin mövqeyini ifadə edərək deyirdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarına qayıdacaqdır və belə də oldu.

İndi isə biz Laçını qurub-yaradırıq. Laçına keçən ilin sentyabr ayında gələndə şəhərin mənzərəsi çox acınacaqlı idi, şəhər demək olar ki, dağılmış vəziyyətdə idi. Köhnədən qalan, işğaldan əvvəlki dövrə aid olan bir neçə yöndəmsiz bina mövcud idi. Bildiyiniz kimi, burada Ermənistan dövləti hərbi cinayət törədərək qanunsuz məskunlaşma aparırdı. Xüsusilə xarici ölkələrdən, Yaxın Şərqdən erməniləri buraya dəvət edib onları bizim, azərbaycanlıların evlərində yerləşdirmişdi.

(ardı 4-cü səhifədə)

# Həkəri çayı sahilində “Laçın Şəhəri Günü” şənliyi







(əvvəli 3-cü səhifədə)

Bu, bir daha demək istəyirəm ki, hərbi cinayətdir. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar, Ermənistanın havadarları buna göz yumurdular. Bu, onlar üçün məqbul idi. Çünki Ermənistan dövləti kimi, Ermənistanın xaricdəki havadarları da hesab edirdilər ki, bu torpaqlar əbədi işğal altında qalmalıdır. Bizim iradəmiz, bizim gücümüz, bizim yumruğumuz onların da başına dəydi. Çünki bizim torpağımızda ikinci Ermənistan, ikinci erməni dövlətinin yaradılması təkcə Ermənistan rəhbərliyinin məhsulu deyildi.

Bu gün isə biz bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik. Müharibədən sonra keçən 3 ilə yaxın müddətdə də bunu sübut etməyə məcburuq. Çünki bizə qarşı aparılan kampaniya, çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz, bizi yolumuzdan döndərə bilməz. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan üçün yaxşı olacaq və bölgə üçün yaxşı olacaq. Çünki biz qurub-yaradan xalqıq. Laçın şəhərini cəmi 8 ay ərzində qurub-yaratmaq xalqımızın həm istedadını, həm iradəsini göstərir və eyni zamanda, onu göstərir ki, bu torpaqların sahibləri bizik. Ermənistan 30 il ərzində torpaqlarımızı işğal altında saxlayıb. Azad edilmiş ərazilərə hər gələn insan öz gözləri ilə erməni vəhşiliyinin təzahürlərini görür. Əgər bu torpaq onlara məxsus idisə, nə üçün şəhərlər, kəndlər viran qoyulub, nə üçün bütün tarixi abidələr dağıdılıb? Onlar da bilirdilər ki, gec-tez biz gələcəyik, biz də bilirdik ki, gec-tez biz gələcəyik. İşğal dövründə keçmiş köçkünlərlə çoxsaylı görüşlərdə mən deyirdim ki, gün gələcək biz öz bayrağımızı Laçında, Şuşada, o vaxt işğal olunan digər şəhərlərdə qaldıracağıq.

Xatırlayıram, 50 yaşım tamam olanda mən laçınlılarla Qarabağda, Qarabağın Ağcabədi rayonunda, Taxtakörpü qəsəbəsində görüşmüşdüm və onlara demişdim ki, - yeni köçkün şəhərciyi açılırdı, - dövlət sizi daha yaxşı şəraitlə təmin edir, ancaq torpaqlarımız azad olunandan sonra sizin üçün Laçında daha gözəl şərait yaradacağıq və belə də oldu. Əlli yaşımı Ağcabədidə laçınlılarla qeyd etmişəm, 60 yaşımı Şuşada qeyd etmişəm, Cıdır düzündə, bu gün də Laçın Şəhəri Günündə sizinlə birlikdə bu bayram tədbirlərində iştirak edirəm. Bu böyük xoşbəxtlikdir, mənim üçün, sizin üçün, hər birimiz üçün. Biz xoşbəxt günləri yaşayırıq və əminəm ki, xalqımız bundan sonra sülh, əmin-amanlıq şəraitində yaşayacaq, öz doğma torpağında qurub-yaradacaqdır. Laçın rayonunun timsalında biz dirçələn Azərbaycan reallıqlarını görürük, dirçələn torpaqları görürük.

Bir məsələyə də toxunmaq istərdim. Bildiyiniz kimi, bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi qoyulmuşdur. Bir daha iradə, cəsarət, öz gücünə əminlik nümayiş etdirərək biz bunu etdik. Nə qədər bizə təzyiqlər oldu, nə qədər hədə-qorxular oldu. Bu gün də davam edir, bu gün də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan və onun arxasında dayananlar bizə qarşı müxtəlif fitnələr ortaya atırlar. Heç bir şey bizi yolumuzdan döndərə bilməz. 23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir. Sərhəd-buraxılış məntəqəsinin qurulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir və bunu biz beynəlxalq hüquq çərçivəsində etdik, biz öz ərazimizi qoruyuruq, öz sərhədlərimizi qoruyuruq və qoruyacağıq.

Ona görə Laçın rayonu ilə bağlı bir çox önəmli tarixi hadisələr baş vermişdir. Bu gün Laçın şəhəri görün, necə də gözəldir cəmi 8-9 ay ərzində, heç bir il keçməyib. Biz bərpa işlərinə keçən ilin oktyabr ayında başlamışdıq, artıq bu gün biz Laçında qonaqları qəbul edirik. Azərbaycanın müxtəlif yerlərindən qonaqlar gəlib, xarici ölkələri təmsil edən diplomatlar gəlib. Bu, bir daha göstərir ki, xalqımız öz doğma torpağında qurub-yaradan xalqdır.

Əziz laçınlılar, mən sizi bir daha ürəkdən salamlayıram, Şəhər Günü münasibətilə təbrik etmək istəyirəm. Əminəm ki, siz öz dədə-baba torpağınızda rahat, xoşbəxt yaşayacaqsınız. Siz buna layiqsiniz. 30 il siz həm fiziki, həm də mənəvi əzab çəkmisiniz. Bu gün isə artıq dirçələn Laçın, dirçələn Qarabağ, dirçələn Şərqi Zəngəzur bizim gücümüzü göstərir və onu göstərir ki, biz istədiyimizə hər zaman nail oluruq.

Bir daha sizi təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!

***

Tədbir konsert proqramı ilə davam edib.

***

Konsertdən sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbir iştirakçıları ilə söhbət etdilər.

***AZƏRTAC***

# Ermənistanın ekoloji terroru davam edir

**Dünən Ermənistan Respublikası ərazisindəki hasilat mədənlərinin kosmik monitorinqinə dair hesabatın təqdimat mərasimi keçirilib. Sənəddə Ermənistan ərazisində istismar olunan mədənlərin transsərhəd çaylar vasitəsilə Azərbaycanın, o cümlədən digər qonşu ölkələrin ekologiyasına ziyan vurması barədə ətraflı məlumat əksini tapıb.**



Hesabatı “Environmental Protection First” QHT koalisiyası Azərbaycan Respublikasının Kosmik Agentliyinin dəstəyi ilə hazırlayıb. Təqdimatda dövlət qurumlarının, beynəlxalq təşkilatların və səfirliklərin, QHT və media qurumlarının təmsilçiləri iştirak ediblər.

Hesabatı təqdim edən “Sudan İstifadə Sahəsində Mütəxəssislər” İctimai Birliyinin sədri Amin Məmmədov Qafan, Voskedzor, Arcut, Yuxarı Vardanidzor, Meqhasar, Azatek, Armanis, Qaraberd, Meqradzor, Hankasar, Şamlux, Sotk, Amulsar, Aqarak, Tequt, Qaracan, Aygedzor, Liçk, Mqart, Sofi Binay, Dastakert, Razdan, Tuxmanuk, Mərcan və Liçqvay-Tey mədənlərindən çıxarılan polimetalın, qızılın, gümüşün, molibdenin, sinkin ətraf mühitə ciddi zərər vurduğunu, ekoloji fəsadlar yaratdığını diqqətə çatdırıb.

Digər çıxış edənlər də bildiriblər ki, Ermənistan ərazisindəki hasilat mədənlərinin kosmik monitorinqinin nəticələri bu yataqların ölkəmiz üçün çox zərərli olduğunu göstərir. Ermənistanın mədən sənayesində davam edən fəaliyyət region ölkələrinin ekoloji durumuna təsirsiz ötüşmür. Mədənlərin bir çoxunun su mənbələrinin yaxınlığında yerləşməsi ətraf mühit üçün zərərli hesab edilən kimyəvi tullantıların çaylara axıdılmasına gətirib çıxarır. Bu mədənlərdə ətrafa yayılan tozlar və emal prosesində istifadə olunan kimyəvi maddələr həm hava yolu ilə, həm də su ilə respublikamızın ekologiyası üçün böyük təhlükə yaradır.

Qeyd olunub ki, Ermənistan “Espoo” konvensiyasının üzvü kimi ölkə ərazisində aparılan mədən fəaliyyəti barədə məsləhətləşməli və bir çox hallarda Azərbaycanın razılığını almalıdır. Yalnız bundan sonra hansısa fəaliyyəti həyata keçirməlidir.

***“Xalq qəzeti”***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 287** **Bakı şəhəri, 26 avqust 2023-cü il**

**“Binalar üçün minimum enerji effektivliyi Normaları”nın təsdiq edilməsi haqqında**

“Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 avqust tarixli 1433 nömrəli Fərmanının 1.1.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Binalar üçün minimum enerji effektivliyi Normaları” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə razılaşdırmaqla on səkkiz ay müddətində binalarda enerji effektivliyini təmin etmək məqsədilə qüvvədə olan tikinti norma və qaydalarının təkmilləşdirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Energetika Nazirliyi Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırmaqla bu Qərarın 2-ci hissəsi ilə təkmilləşdirilmiş tikinti norma və qaydaları əsasında “Binalarda enerji sərfinin hesablanması metodologiyası”nı altı ay müddətində hazırlayıb təsdiq etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 288** **Bakı şəhəri, 26 avqust 2023-cü il**

**“Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

“Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992, № 11, maddə 1404; 2021, № 1, maddə 102, № 4, maddə 412, № 7, maddə 883, № 8, maddə 963, № 10, maddə 1168, № 12, maddə 1540; 2022, № 3, maddə 260, № 4, maddə 418, № 6, maddə 667, № 8, maddə 963, № 9, maddə 1094, № 12, maddə 1537; 2023, № 1, maddə 142, № 3, maddələr 434, 441, № 5, maddə 728) 2-ci hissəsində “iyulun 1-dək” sözləri “oktyabrın 2-dək” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Prezidentin köməkçisi “X”də paylaşım edib

**Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Laçında valideynləri etnik təmizləməyə məruz qalmış uşaqların fotolarından ibarət sərgi ilə də bağlı “X” hesabında paylaşım edib.**

“Laçında fotoqraf Reza Deqati tərəfindən hazırlanan “Ev, Şirin Ev” adlı layihə. Babaları və valideynləri Ermənistanda etnik təmizləmənin qurbanı olmuş 100 uşağın fotoları. Onlar 30 ildən sonra Laçının Ermənistanın dağıdıcı işğalından azad edilməsi ilə onlar öz Vətənlərinə, Laçına qayıdırlar. Həmçinin burada dünyanın müxtəlif guşələrindən olan 100 uşağın fotoşəkilləri də var”, - paylaşımda qeyd olunub.

***“Xalq qəzeti”***

# Türkiyənin milli müdafiə naziri Bakıda



**Avqustun 26-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Gülerin başçılıq etdiyi nümayəndə heyətini Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılayıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən “XQ”yə bildirilib ki, səfər çərçivəsində ölkələrimiz arasında hərbi əməkdaşlığın müxtəlif aspektləri, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirə edilməsi nəzərdə tutulub.

# Fransanın cəhdi baş tutmadı

**Dünən Laçında keçirilən şəhər günü şənliklərində iştirak etmək üçün Azərbaycanda akkreditasiya olunmuş diplomatik korpusun nümayəndələri bölgəyə səfər ediblər.**

Diplomatik mənbələrdən əldə etdiyimiz məlumata görə, Fransa Avropa İttifaqı ölkələrinin bu tədbirdə iştirakını əngəlləmək üçün ciddi cəhd göstərib, diplomatların ora səfərdən imtina etməsinə çalışıb. Qatı ermənipərəst ölkənin bu təxribatçı istəyi də baş tutmayıb.

***“Xalq qəzeti”***

# Ermənistan ordusunun növbəti təxribatının qarşısı alınıb

**Avqustun 26-sı saat 13:30 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri təxribat törətmək məqsədilə Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Havuş yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərinin qarşısında əlverişli mövqelər tutmağa cəhd göstəriblər.**

Bu barədə “XQ”yə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bölmələrimizin sayıqlığı nəticəsində təxribat törətmək istəyən qarşı tərəfin fəaliyyəti dərhal dayandırılıb.

# Həssas qruplara şəfqət və qayğı örnəyi

**Azərbaycanın sosial dövlət olduğunu bəyan edən Prezident İlham Əliyevin uğurlu siyasətinin başlıca istiqamətini ölkə vətəndaşlarının rifahının və məmnunluğunun təminatı təşkil edir və dövlət başçısının tapşırıqları əsasında aparılan ardıcıl sosial islahatlar bu sahədə ciddi irəliləyişlərə imkan verib. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın yüksək humanizm, nəciblik, xeyirxahlıq nümunəsi olan təşəbbüs və layihələri də ölkəmizin sosial dövlət olduğunu əməli şəkildə təsdiq edən uğurların əldə edilməsində, xüsusilə əhalinin həssas qruplarının diqqət və qayğı ilə əhatə olunmasında mühüm rola malikdir.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, sosial sahənin bütün istiqamətlərində həmin təşəbbüs və layihələr öz uğurları ilə töhfəsini verir. DOST konsepsiyası bunun uğurlu nümunələrindən biridir. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası əmək, məşğulluq, əlillik, reabilitasiya, sosial təminat, övladlığagötürmə sahələri üzrə 15 istiqamətdə 159 növdə xidmətin innovativ yanaşmalar əsasında "bir pəncərə"dən, vətəndaşlara daha yaxın və əlçatan şəkildə, şəffaf mühitdə, vətəndaş məmnunluğu prinsipinə uyğun təqdim olunmasına şərait yaradıb.

Prezidentin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə ötən dövrdə DOST Agentliyi və 7 DOST mərkəzi, həmçinin Zəngilanın Ağalı kəndində Smart DOST məntəqəsi açılıb. Hər gün orta hesabla 3,1 min vətəndaşa sosial sahələr üzrə "bir pəncərə"dən xidmət göstərən DOST mərkəzlərinin xidmətlərindən indiyədək 1,7 milyon vətəndaş faydalanıb və həmin xidmətlərdən vətəndaş məmnunluğu 98,2 faizdir. DOST mərkəzləri şəbəkəsi ölkə boyu genişlənir və 2025-ci ilədək bu mərkəzlərin sayı 17-yə çatdırılacaq, habelə 55 DOST filialı, SMART DOST məntəqələri də açılacaq.

DOST konsepsiyası son illər Azərbaycanın mühüm innovativ yeniliyi olmaqla mötəbər beynəlxalq qurumlar tərəfindən də yüksək dəyərləndirilir və həmin təşkilatlar tərəfindən 13 mükafatla, Mükəmməllik Sertifikatları ilə təltif olunub. Həmçinin Avropa İttifaqı hələ iki il əvvəl, 2021-ci ildə özünün Biznes Mühiti Hesabatında DOST mərkəzlərini Azərbaycanın 3 təkmil islahatından biri kimi qiymətləndirib.

Heydər Əliyev Fondunun mühüm sosial əhəmiyyət kəsb edən layihələrindən biri kimi, son illərdə Abşeron rayonunda üç çoxmənzilli yaşayış binasının inşa edilərək dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum məzunlarına təqdim edilməsi ölkəmizdə hər bir vətəndaşın dövlətin qayğısı ilə əhatə olunduğunun mühüm təzahürüdür. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin "Məzun evi" kimi fəaliyyət göstərən həmin yaşayış binalarının sakinlərinin məşğulluğunun təminatı, digər sahələrdə də dəstəklə əhatə olunmaları üçün ardıcıl işlər aparılıb.



Eyni zamanda 2016-cı ilin Aprel döyüşlərində yaralanmış hərbçilərimiz Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın diqqət və qayğısı ilə əhatə olundular. Fondun layihəsi çərçivəsində həmin əsgər və zabitlər Almaniya, İslandiya, İngiltərənin dünyada məşhur protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksək texnologiyalı son nəsil protezləri ilə təmin olundular və yenidən aktiv həyata davam edirlər. Möhtəşəm Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra dövlət başçısının tapşırığı ilə icra olunan mühüm sosial dəstək proqramı üzrə bu sahədə mühüm işlər aparılır və müharibədə yaralanaraq əzalarını itirmiş 435 hərbçimiz 454 ədəd yüksək texnologiyalı son nəsil müasir protezlə təmin edilib.

Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyətinin əsas istiqamətlərindən biri də əlilliyi olan şəxslərin reabilitasiyası və cəmiyyətə fəal inteqrasiyasının dəstəklənməsidir. Bunun nümunələri olaraq, onun təşəbbüsü və dəstəyi ilə əlilliyi olan uşaqlar üçün Bakının Yeni Günəşli yaşayış massivində yeni uşaq reabilitasiya müəssisəsi, həmin uşaqlar üçün sosial xidmət müəssisələrində müasir tələblərə uyğun yaşayış və reabilitasiya şəraiti, Naxçıvan, Gəncə və Yevlaxda məhdud fiziki imkanlı insanlar üçün regional informasiya mərkəzləri yaradılıb.

2021-ci ilin oktyabr ayında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə açılışı olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi isə Azərbaycanda əlilliyi olan şəxslərin və digər həssas qrupların cəmiyyətə inteqrasiya imkanlarının artırılması sahəsində aparılan fəal dövlət siyasətinin növbəti əyani təcəssümüdür. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan həmin Mərkəz Cənubi Qafqazda ilk dəfə olaraq kifayət qədər əhatəli, çoxşaxəli fəaliyyət istiqamətlərini özündə birləşdirən ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanıdır.

Mərkəzdə həssas qruplara (əlilliyi olan şəxslər, şəhid ailələrinin üzvləri, valideyn himayəsindən məhrum olmuş şəxslər və s.) aid 200-dən çox benefisiar müxtəlif fəaliyyət istiqamətləri (rəqs, təsviri incəsənət, duluşçuluq, musiqi, dərzilik, modelyerlik, xalçaçılıq, toxuma, tikmə, bədii oyma, floristika, bağçılıq və landşaft dizaynı, audio-səsyazma, fotoqrafiya, kulinariya, səhnə ifaçılığı, kapoeyra, badminton və s.) üzrə təlimlərdə iştirak edir, bacarıqların təkmilləşdirir. Onların yaradıcı potensialının inkişafına dəstək göstərilməsi ilə yanaşı, Ümumdünya Səhiyyə Təşkilatının təsdiqlədiyi metod üzrə kompleks reabilitasiya xidmətləri ilə də əhatə olunublar.

Eyni zamanda Heydər Əliyev Fondu həssas qrupların, tənha ahılların yaşadığı sosial xidmət müəssisələrində mütəmadi nəcib, xeyirxah aksiyalar, tədbirlər keçirir, dövlət himayəsində yaşayan insanları öz qayğısı ilə əhatə edir. Pandemiya dövründə də həmin sosial xidmət müəssisələrində sakinlərin COVID-19 infeksiyasından qorunması üçün fond tərəfindən ardıcıl dəstək işləri aparıldı. Həmçinin sosial cəhətdən həssas olan ailələr fond tərəfindən sovqatlarla, ərzaq yardımları ilə təmin edildilər. Fondun "Regional İnkişaf" İctimai Birliyi özünün "Sosial bağlar" layihəsi ilə özünüməşğulluq proqramının genişlənməsinə öz dəstəyini göstərib və bu layihə çərçivəsində son illər yüzlərlə aztəminatlı ailə üçün intensiv meyvə bağları, tərəvəz və bostançılıq təsərrüfatları yaradılıb.

Beləliklə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın müəllifi olduğu, yüksək humanizm və xeyirxahlıq nümunəsi olan layihələr, təşəbbüslər ölkəmizdə sosial inkişafın təmin edilməsinə, xüsusi qayğıya ehtiyac duyan şəxslərin qayğı ilə əhatə olunmasına xidmət edir və ictimaiyyət tərəfindən daim böyük rəğbət hissi ilə qarşılanaraq yüksək dəyərləndirilir.

## Heydər Əliyev Fondu uşaqları sevindirdi

**Dünən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə valideyn himayəsindən məhrum uşaqlar üçün növbəti şənlik təşkil edilib.**



Uşaqlara bəxş edilən sevinclə dolu gün ərzində DJ-lər, animatorların iştirakı ilə müxtəlif proqramlar, əyləncələr təqdim olunub. Uşaqlar müxtəlif rəqslər ifa edib, öz məharətlərini göstəriblər.

Uşaq evlərinin sakinləri bu günün təəssüratını nahar süfrəsində bir-biri ilə maraqlı söhbətlər edərək paylaşıblar. Şənlik 1 saylı Uşaq Evinin 2 sakini – Əli Həmidov və Qənirə Zeynalova, 3 saylı Uşaq Evinin sakini Cihan İsimxanlının ad günlərinə təsadüf edib. Heydər Əliyev Fondunun təşkil etdiyi əyləncə bu gün həm ad gününü qeyd edən uşaqlar, həm də uşaq evlərinin digər sakinləri üçün yaddaqalan xatirəyə çevrilib.

Şənliklə bağlı təəssüratlarını bölüşən 1 nömrəli Uşaq Evində məskunlaşan Aysu Namazova bildirib ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə çox gözəl şənlik təşkil olunub. O, Heydər Əliyev Fondu tərəfindən uşaqlara göstərilən mütəmadi qayğıya görə təşəkkürü ifadə edib.

Sonda gözəl gündən xatirə olaraq hər bir uşağa Fondun hədiyyələri təqdim olunub.

Qeyd edək ki, Heydər Əliyev Fondunun gördüyü işlər sırasında valideyn himayəsindən məhrum, eləcə də xüsusi qayğıya ehtiyacı olan uşaqların diqqətdə saxlanılması xüsusi yer tutur. Fond mütəmadi olaraq belə tədbirlər təşkil etməklə bu kateqoriyadan olan uşaqların hərtərəfli qayğı ilə əhatə edilməsinin vacibliyinə cəmiyyətin diqqətini bir daha yönəldir.

***"Xalq qəzeti"***





## DOST mərkəzindən Laçına nəğmə töhfəsi

**"Ay Laçın" xalq mahnısı bu dəfə Laçın şəhəri günündə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarı, I dərəcə gözdən əlilliyi olan Rəvanə Ağamirovanın ifasında səslənib.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən "XQ"yə verilən məlumata görə, öz bacarıq və istedadı ilə "Əlillik qüsur deyil" devizini bir daha təsdiqləyən Rəvanə məlahətli səsi ilə doğma və kövrək duyğular aşılayan bu xalq mahnısına yeni ruh, nəfəs bəxş edir.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan həmin mərkəz digər həssas qruplardan olanlar kimi, I dərəcə gözdən əlilliyi olan Rəvanə Ağamirovanın da yaradıcı potensialının inkişafına və cəmiyyətə tanıdılmasına mühüm dəstək verir.

Ötən il bu mərkəzə qəbul olunan Rəvanənin ifaçılıq qabiliyyətinin daha da inkişaf etməsi üçün göstərilən səylər öz bəhrəsini verir, sənətdə uğurlu addımlara imza atır.

## Yeni sakinlərə məşğulluq dəstəyi

**Böyük Qayıdış proqramı üzrə Laçın rayonuna köçürülən sakinlərin özünüməşğulluğuna da dəstək işləri aparılır.**

Dövlət Məşğulluq Agentliyinin nümayəndələrinin Laçına köçürülən ailələrlə görüşləri zamanı onların özünüməşğulluq proqramında iştirak imkanları da qiymətləndirilir. Sakinlərdən 35 nəfər ilkin mərhələdə özünüməşğulluq proqramına cəlb edilmək üçün qeydiyyata alınıb. Həmin şəxslər üçün əvvəlcə biznes təlimləri təşkil ediləcək, iştirakçılara sahibkarlıq fəaliyyəti və müvafiq dəstək mexanizmləri barədə məlumatlar veriləcək.

Təlimlərdən sonra proqram iştirakçıları kənd təsərrüfatı, istehsal, xidmət sahələri üzrə kiçik bizneslərini qurmaları üçün aktivlərlə təmin olunacaqlar.

***"Xalq qəzeti"***



# Fransızsayağı “sülh karvanı”

## Yaxud Parisin Laçın yolu istiqamətində “humanitar hücum” taktikası

**(əvvəli 1-ci səhifədə)**

O qeyd edib ki, layihə Fransanın İl-de-Frans, Overn-Rona-Alp, O-de-Frans, Provans-Alp-Lazur sahili, Luara Torpağı regionları və digər şəhərləri tərəfindən maliyyələşdirilir. Avqustun 30-da günorta saatlarında Laçın yoluna çatacaq karvanı Ann İdalqo, Ksavye Bertran, Bruno Retayo, Janna Barseqyan, habelə Patrik Karam və Mişel Rubirola şəxsən müşayiət etmək qərarına gəliblər.

Qeyd edək ki, bir ay bundan əvvəl – iyulun 26-da Ermənistan da oxşar təxribata əl atmışdı. İyulun 25-də Moskvada Rusiyanın xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında keçirilən görüşdən bir gün sonra baş nazir Nikol Paşinyan hökumətin iclasında Qarabağa “humanitar yardım karvanı” göndərəcəklərini bildirmişdi. Bunun ardınca təxribatçı addım atılmış, karvan Qarabağ istiqamətində yola düşmüşdü. Ancaq Azərbaycan tərəfi qonşu dövlətin ölkəmizlə razılaşdırmadan atdığı bu təxribatçı addımın qarşısını almışdı. Qarabağa nə apardığı, ümumiyyətlə boş və ya dolu olduğu bilinməyən TIR-lar bugünədək Laçın yolunun girişində gözləməkdədirlər. Görünür, oxşar təxribatın qarşısının bu dəfə də alınacağını bildiyi üçün Murad Papazyan Fransa və Avropa hakimiyyət orqanlarından içində, guya, zəruri məhsullar olan 10 yük maşınının Azərbaycanın yaratdığı “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsindən keçib, təyinat yerinə çatması üçün xüsusi diplomatik vasitələrdən istifadə etməyi xahiş edib. Ancaq Fransa və Avropa hakimiyyət orqanlarının (?) onun xahişini yerinə yetirməsi, çətin ki, mümkün olsun. Onun hansı “xüsusi diplomatik vasitələr”i nəzərdə tutduğu da müəmmalıdır. Ümumiyyətlə, beynəlxalq münasibətlər sistemində, diplomatiya və diplomatik xidmətdə “xüsusi diplomatik vasitələr” anlayışı mövcud deyil. Parisdə yaşayıb, diaspor təşkilatlarının ittifaqına rəhbərlik edən şəxsin bunu dərk etməməsi bir qədər qəribədir.




Ümumiyyətlə, Azərbaycanın öz sərhədlərinə nəzarət və Ermənistanın təxribatlarının qarşısını almaq məqsədilə təsis etdiyi “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsinin mövcudluğunu həzm edə bilməyən Fransanın ölkəmizlə razılaşdırmadan suveren ərazilərimizə “humanitar yük” adı altında avtomobil karvanı göndərməsi ərazi bütövlüyü və suverenliyimizə qəsddir. Bu, eyni zamanda, “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsinə qarşı növbəti təxribatdır. Avropa İttifaqının aparıcı dövlətlərindən və tarixin arxivinə gömülmüş ATƏT-in Minsk qrupunun üç həmsədr ölkəsindən biri kimi özünü Ermənistan–Azərbaycan danışıqları prosesinə pərçim etməyə çalışan, ancaq hər dəfə çıxdaş edilən Fransanın belə bir addım atması “Beşinci Respublika”nın prosesdə səmimi olmadığını, vəziyyəti gərginləşdirməklə beynəlxalq ictimaiyyəti çaşdırmaq niyyətində olduğunu göstərir.

### Ekspert rəyi



**Yeganə HACIYEVA, politoloq**

– 44 günlük Vətən müharibəsindən sonra Fransa artıq dördüncü dəfədir ki, BMT Təhlükəsizlik Şurasının Azərbaycan əleyhinə qətnamə qəbul etməsinə çalışır. Rəsmi Paris qətnamənin qəbul olunması üçün ciddi səylər göstərir. Fransa öz təşəbbüslərini əsaslandırmaq üçün Ermənistanın təqdim etdiyi təhrif olunmuş məlumatlardan yararlanır. Amma onların dezinformasiyasını Azərbaycan çox rahatlıqla faş edir. Fransa növbəti anti-Azərbaycan qətnaməsini əsaslandırmaq üçün “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsində təxribata əl atır. Bunu belə izah etmək mümkündür.

Aydın məsələdir ki, Parisin və digər şəhərlərin rəhbərliyi bunu özbaşına etmirlər. “Humanitar yardım karvan”ın göndərilməsi ideyasını Fransanın Overn-Rona-Alp regionunun rəhbəri Loran Voke mart ayında İrəvanda bəyan etmişdi. Bu proseslərin əsas hərəkətverici qüvvəsi Fransadakı erməni lobbisidir. Burada Makron da təşəbbüskar rolundadır. Onun son vaxtlar BMT TŞ-dəki bütün təşəbbüsləri uğursuz olub. Bir müddət öncə Mali ilə bağlı Təhlükəsizlik Şurasında uğursuzluğa düçar olan rəsmi Paris Azərbaycanla bağlı sənədin qəbul olunmasına cidd-cəhdlə çalışır. Bir sözlə, Makronun Parisin merini, eyni zamanda, digər regionların rəhbərlərini təxribat üçün Azərbaycanla sərhədə göndərməsinin əsas səbəbi Fransanın BMT Təhlükəsizlik Şurasına təqdim etməyə hazırlaşdığı yeni anti-Azərbaycan sənədinin qəbul olunması üçün əsaslar formalaşdırmaq məqsədi daşıyır. Ermənistanın “blokada” yalanları ilə bağlı Beynəlxalq Cinayət Məhkəməsinin sabiq prokuroru Luis Moreno Okamponun rəyi ifşa olunduğu üçün Fransa özü dövriyyəyə girib.

Azərbaycanın Qarabağın erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan və digər alternativ yollardan istifadə də daxil olmaqla, bir sıra təkliflər irəli sürməsinə, bu təkliflərin Avropa İttifaqı, Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən dəstəklənməsinə baxmayaraq, Ermənistan tərəfi bütün təklifləri geri çevirir. Rəsmi İrəvan Azərbaycanın təklif etdiyi yollar vasitəsilə BQXK tərəfindən yüklərin daşınmasına qarşı çıxır, humanitar fəaliyyətə maneçilik törədir, alternativ yollara beton maneələr düzməklə əraziyə girişi bloklayır. Bütün bunlar ermənilərin “humanitar böhran” iddialarının siyasi şantaj olduğunun göstəricisidir. Bu addımlar humanitar fəaliyyəti siyasiləşdirməklə yanaşı, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tanınmasına dair Nikol Paşinyanın bəyanatları ilə də ziddiyyət təşkil edir.

Əslində, bütün bunlar Fransa rəhbərliyinə, Parisin merinə, o cümlədən Murad Papazyana da yaxşı məlumdur. Onlar bilirlər ki, göndərilən “humanitar yardım karvanı” İrəvandan yola düşən karvanın yanında ilişib qalacaq. Buna baxmayaraq, onlar bu addımı atırlar. Burada da məqsəd Azərbaycana təzyiq göstərmək, öz aləmlərində onu ləkələmək, beynəlxalq ictimaiyyətin gözündən salmaqdır.

***

Azərbaycan xalqının ziyalılarının hələ XIX əsrin 60-70-ci illərindən dünyaca məşhur universitetlərində oxumaq üçün getməyə can atdıqları Paris şəhərinin rəhbərliyinin hazırkı mövqeyi isə təəssüf və təəccüb doğurur. İnzibati-ərazi bölgüsünə görə, Fransa regionlara, regionlar isə departamentlərə bölünür. Hazırda Fransada 18 region, 101 departament mövcuddur. Paris isə həm şəhər, həm də departament statusuna malikdir. Bununla yanaşı, Parisin meri Paris Şurasına rəhbərlik edir. Fransada digər ərazi vahidlərindən fərqli olaraq, Paris tam inzibati azadlığa malik deyil. Bundan əlavə, Paris Fransada polisin merə deyil, prezident tərəfindən təyin olunan polis prefektinə tabe olduğu yeganə şəhərdir. Paris Şurası 163 nəfərdən ibarətdir. Şura birbaşa səsvermə ilə seçilmir. Yeni seçilən şura şəhər merini və onun müavinlərini seçir. Fransanın qatı ermənipərəst Prezidenti Emmanuel Makronun yaratdığı və rəhbərlik etdiyi “İrəli, Respublika!” partiyası şurada geniş şəkildə təmsil olunur. Bu faktlar bir daha sübut edir ki, Paris merinin Qarabağa “humanitar yardım karvanı” göndərmək təşəbbüsünün arxasında Fransa hakimiyyəti dayanır. Ancaq xanım merin ermənipərəstliyinin də burada mühüm rolu var.

Ann İdalqo bineyi-qədimdən ermənipərəst mövqeyi ilə tanınır. Merin bir çox Fransa rəsmiləri kimi erməni lobbisinin tam nəzarətində olduğu şübhə doğurmur. Erməni diasporu ilə sıx ünsiyyətdə olan merin müavinlərindən biri Anuş Toronyanın etnik erməni olması da diqqətdən yayınmır. Anuş Toronyan Fransadakı erməni təşkilatlarının koordinasiya şurasının rəhbəri Ara Toronyanın qızıdır.

Mətbuatda yer alan məlumatlara diqqət etdikdə görürük ki, Parisin meri 2015-2018-ci illərdə Ermənistanın sabiq prezidenti Serj Sarkisyanla 4 dəfə görüşüb. Ann İdalqo Ermənistanda yaradılmış Kreativ Texnologiyalar Mərkəzinin (TUMO) açılışında iştirak edib və ona hərtərəfli dəstək göstərib. Vaxtilə TUMO-nun Xankəndidə də ofisi olub.

Ann İdalqo ilə bağlı digər faktlar sırasında onun Fransa ermənilərinin təşkil etdiyi tədbirlərdə iştirakını da qeyd etmək olar. O, Fransada erməni kilsəsinin açılışına da qatılıb. Ann İdalqo qondarma “erməni soyqırımı” ilə bağlı sosial şəbəkələrdəki paylaşımları ilə də məşhurdur. 2020-ci ildə ikinci müddətə Paris meri seçilən Ann İdalqonun rəqibi Rəşidə Datinin Azərbaycanla əlaqələrinin olması barədə kampaniyanın başında məhz Murad Papazyan və Ara Tonoyan dayanıblar. Bunlar Paris merinin, onun müavininin ermənilərlə necə sıx bağlı olması ilə bağlı tutarlı faktlardır.

Bütün bunlardan sonra əminliklə demək olar ki, Qarabağa “humanitar yardım karvanı” göndərmək təşəbbüsü təkcə Paris merinin ermənisevər, onun müavininin erməni olması ilə bağlı deyil. Bunun kökündə Fransa hakimiyyətinin indiki ermənipərəst siyasəti dayanır. Ancaq onların bütün digər təşəbbüsləri kimi, bu cəhdləri də uğursuzluğa düçar olacaq.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

# Krivopuskov amili, “Üsyankar Qarabağ” və İrəvanda seçki

## Yaxud Viktor-Ruben tandeminin “Qarabağ kartı”

**Rusiya – Ermənistan Dostluq Cəmiyyətinin rəhbəri Viktor Krivopuskovun İrəvandakı “Zvornots” hava limanından geri göndərilməsi həm Rusiyada, həm də Ermənistanda qalmaqal yaradıb. “RİA Novosti” diplomatik mənbəyə istinadən bildirib ki, məsələ rəsmi Moskvada xoşagəlməz təəccüb doğurub. Həmin mənbənin məlumatına görə, İrəvan imtinanın səbəblərini açıqlamır. Belədə sual da yaranır: Ermənistan Rusiya ilə dostluq etmək istəmir?**

Əslində, sual meydana yalnız indi çıxmır. Baş nazir Nikol Paşinyan 2018-ci ildə hakimiyyətə gələndən sonra bu mövzu ətrafında müzakirələr getməkdədir. Buna səbəb Nikolun rəhbərlik etdiyi hakimiyyətin tutduğu mövqedir. Hazırkı Ermənistan iqtidarının anti-Rusiya təmayülünü təsdiqləyən, kifayət qədər, dolğun faktlar var. Yazımızda onlardan danışmaq niyyətindən uzağıq. Əsas məsələ budur ki, V.Krivopuskov nə üçün Ermənistana buraxılmır? Yaxud, o, nəyə görə İrəvana məhz indi gəlmək istəyirmiş?

Krivopuskov TASS-a açıqlamasında bunları deyib: “Məni ölkəyə buraxmadılar. Ermənistan üçün arzuolunmaz olduğumu bildirdilər. Pasportumu əlimdən aldılar. Mənə rəsmi kağızı göstərmədilər, amma başa düşdüm ki, sərhədi açmasalar, pasportumu qaytarmayacaqlar... Dedilər, bu gün Moskvaya qayıdın”.

***

Üzərində dayanılmalı ilk məqam V.Krivopuskovun dostluq adı ilə digər hərəkətlərə baş vurmasına dair şübhədir. Məlumdur ki, Ermənistanda seçki yaxınlaşır. Sentyabrda İrəvan merinin kimliyinə aydınlıq gəlməlidir. Ölkənin idarəçilik sistemi elə qurulub ki, paytaxta rəhbərlik, faktiki olaraq, hazırkı hakimiyyətin qərarlarına qarşı çıxılmasını leqallaşdırır. Buna görə anti-Paşinyançı qüvvələr seçkiyə ciddi hazırlaşırlar. Elə baş nazirin tərəfdarları da. İkincilər təhlükəyə qarşı səfərbər durumdadırlar. Təhlükə isə ümumən iqtidarı itirmək perspektivini doğura bilər.



Bu yerdə Rusiyanın bəzi dairələrinin Ermənistanda hakimiyyət dəyişikliyində maraqlı olduğunu bildirmək zərurəti yaranır. Belədə V.Krivopuskov rusperəst ermənilər üçün, bir növ, “boz kardinal” təsəvvürünə gəlir. Mümkündür ki, onun İrəvana ayaq basması və dostluq adı ilə keçirəcəyi görüşlər Paşinyan iqtidarında təşviş doğurur. Baş nazirin tərəfdarlarının Krivopuskovun ölkəyə seçki fəallığı ilə bağlı tezislər gətirdiyini düşünmələri də ehtimal olunur.

***

“Boz kardinal”ın Ermənistan-Rusiya Dostluq və Əməkdaşlıq Cəmiyyətinin təqdimatında iştirak məqsədilə İrəvana gəldiyi bildirilir. Belə görünür ki, Rusiya tərəfi bu hadisəyə ciddi önəm verir. Əks halda “RİA Novosti”nin diplomatik mənbəyi V.Krivopuskova qarşı xoşagəlməz davranışa münasibət bildirərkən qəzəb püskürməzdi: “Erməni tərəfdaşlardan hakimiyyət orqanlarının qərarının səbəblərini və Rusiya vətəndaşı statusunu respublika sərhəd xidməti nöqteyi-nəzərindən izah etmələri xahiş olunub. Təəssüf ki, Rusiyanın siyasətçilərinə, ictimai xadimlərinə, media orqanlarının nümayəndələrinə qoyulan məhdudiyyətlər ikitərəfli münasibətlərin inkişafına heç bir faydası olmayan çirkin təcrübəyə çevrilir”.

Qeyd edək ki, Rusiyanın “News Media” Holdinqinin təsisçisi Aram Qabrielyanov Ermənistanın arzuolunmaz şəxsləri siyahısındadır. Həmin siyahıda “Rossiya seqodnya” media qrupunun və Rusiyanın dövlət televiziyasının baş redaktoru Marqarita Simonyanın, həmçinin Rusiya Dövlət Dumasının deputatı, qatı ermənipərəst mövqeyi ilə seçilən Konstantin Zatulinin də adları var.

Bu arada Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Ermənistanın rus siyasi istableşmentinə qoyduğu qadağalara mənfi münasibəti də açıqlanıb. Onun sözlərinə görə, Ermənistan Rusiyanın böyük dostu, müttəfiqi, strateji tərəfdaşıdır və ölkələr arasında qarşılıqlı fəaliyyətin səviyyəsi və xarakteri ikitərəfli münasibətləri xoşagəlməz hallardan qorumağa məcbur edir. Əlbəttə, Ermənistan rəsmiləri Peskovun bu fikrini bir qulaqdan alıb o birindən ötürmək ixtiyarındadırlar və bunu edirlər. Bəs, Krivopuskova “boz kardinal” demək üçün əsas varmı? Əlbəttə var. Hələ ortada “Qarabağ kartı” da var.

***

Yada salaq ki, sabiq SSRİ-nin Daxili İşlər Nazirliyinin yüksək rütbəli zabiti olmuş Viktor Krivopuskovun erməni sevgisi hələ ötən əsrin 80-ci illərinin axırlarında başlayıb. O, 1990-1991-ci illərdə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində SSRİ DİN-in İstintaq Əməliyyat Dairəsinin qərargah rəisi vəzifəsində işləyib və elə həmin vaxt ermənilərin azərbaycanlılara qarşı vəhşiliklərini araşdırmaq əvəzinə, “miatsumçular”ın xəbərdaşıyanı olub.

Təsəvvür edin, bu adam Qarabağ klanının təmsilçilərinə SSRİ Daxili İşlər Nazirliyinin hərbi komendantının və Daxili Qoşunlarının hərbi qulluqçularının Azərbaycan ərazisindəki erməni separatizminin kökünün kəsilməsinə yönəlmiş əməliyyat tədbirləri barədə məlumat ötürüb. Maraqlıdır ki, Krivopuskov bütün bunları gizlətməyib, özünün “Üsyankar Qarabağ” kitabında yazıb. Onun kitabı, əslində, Qarabağdakı erməni vandallıqlarının xronologiyasına aydınlıq gətirmək üçün yaxşı mənbədir. Əlbəttə, nəşr Krivopuskovun o zaman Qarabağ separatçılarının liderləri, sonradan Ermənistanın dövlət başçıları olmuş Serj Sarkisyan və Robert Koçaryanla saunada əylənmələrinin təsviri səhnələri ilə də “zəngindir”. Bu “zənginlikdə” qondarma “dqr”in 15 illiyi medalı xüsusi yer tutur.

2009-2013-cü illərdə “Rossotrudniçestva”nın Ermənistandakı nümayəndəliyinə rəhbərlik etmiş, eyni zamanda, Rusiyanın İrəvandakı səfirliyində müşavir işləmiş V.Krivopuskovun Ermənistan dövlətinin də medalları ilə təltif olunduğu məlumdur. Yəni, o, ölkəyə, habelə erməni separatizminə, kifayət qədər bələddir. Çox güman, Ermənistandakı rusperəstləri də yaxşı tanıyır və onların, belə demək mümkünsə, damarlarını tutmaq baxımından mütəxəssisdir. Əks halda Paşinyanın sərhədçiləri onu hava limanından niyə geri qaytarsınlar?

***

Daha bir məqama diqqət yetirək. Məlum olduğu kimi, Qarabağdakı separatçı rejimin sabiq “dövlət naziri” Ruben Vardanyan sonuncu “Telegram” paylaşımında Ermənistandakı seçkiyə yönəlik fikirlərlə yadda qalıb. O, “əsl vətənpərvərləri” aktivliyə çağırıb. Bu çağırış ölkə hakimiyyətini seçki yolu ilə devirmək motivlərinə əsaslanması ilə diqqət çəkib. Mövcud xüsusda Qarabağ amilini qabardan Vardanyan Ermənistan iqtidarını Qarabağı Azərbaycana güzəştə getməkdə ittiham edib, sərt və təhqiramiz fikirlər bölüşüb. Bu, onu deməyə əsas verir ki, İrəvan meriyasına seçkilər müstəvisində “Qarabağ kartı” ortaya atılmaqdadır. O kart ki, Ermənistanın müasir dövlətçiliyi onun üzərində qurulub. Elə Vardanyanın sözlərindən də belə çıxıb ki, Qarabağ yoxdursa, erməni dövlətçiliyi də yoxdur.

Bir daha bildirək ki, V.Krivopuskov Rusiya-Ermənistan Dostluq Cəmiyyətinin rəhbəridir. Vardanyan isə Rusiyanın bəzi dairələrinin Cənubi Qafqazda Qarabağ avantürasının saxlanılması üçün bölgəyə yerləşdirdikləri dələduzdur. O, V.Krivopuskovun özü qədər qaranlıq keçmişə malikdir. Mövcud durumda bütün daşlar yerinə oturur. Deməli, vaxtilə Qarabağ klanı naminə mənfur xidmətlər göstərmiş “boz kardinal”ın İrəvan hava limanındakı sərhəd punktundan keçə bilməməsinin daha bir səbəbi ortadadır: O, Vardanyana və onun Ermənistan paytaxtındakı tərəfdarlarına dəstək üçün gəlirmiş. Krivopuskovun kitabının adı “Üsyankar Qarabağ”dırsa, çox güman, avantüristlərə həmin kitabdan “mühazirələr” oxuyacaqmış.

***Ə.RÜSTƏMOV, “Xalq qəzeti”***

# Ehtiyac artdıqca mənzilə, kirayə haqqı qalxır zilə

**Azərbaycanda kirayə mənzillərin bahalaşması və ya qiymətlərin aşağı düşməsi, əsasən, mövsümi xarakter daşıyır. Kirayə mənzil bazarında qiymətlərin dəyişməsi yay mövsümü üçün daha xarakterikdir. Bu da əsasən, tədris prosesinin başa çatması, eləcə də paytaxt Bakıya və regionlara turist axınının güclənməsi ilə bağlıdır. Bu baxımdan, ev-alqı-satqısı ilə məğul olanların, kirayə mənzillərin tapılmasında vasitəçilik edənlərin bir qismi yay fəslini fürsət hesab etsə də, bəziləri "iş yoxdur"– deyə gileylənirlər.**

Son illər kirayə bazarında, bir qayda olaraq, kəskin qiymət artımı baş verir. Ən yüksək artım isə, ənənəvi olaraq, şəhərin mərkəzi hissəsində müşahidə edilir. Bu ərazilərdə 2 otaqlı mənzilin 1 aylıq kirayəsi 600-800, hətta bəzi hallarda 1000 manata qədər qalxır.

Paytaxtətrafı ərazilərdə isə qiymətlər münasib olsa da, son zamanlar həmin evlərə də tələbatın artması qiymətlərin artmasını qaçılmaz edir. Əmlak sahəsində çalışan ekspertlər bunu müxtəlif amillərlə izah edirlər. Belə ki, bəzi ekspertlərin fikrincə, son illər bölgələrdən paytaxta iş dalınca gələnlərin sayının kifayət qədər çox olması kirayə mənzillərə tələbatı getdikcə artırır. Bəziləri isə hesab edirlər ki, il yarımdır davam edən Rusiya–Ukrayna müharibəsi Azərbaycanın, xüsusən də paytaxt Bakının kirayə mənzil bazarına təsirsiz ötüşməyib. Onların fikrincə, ötən müddətdə hər iki ölkədən geri qayıdan soydaşlarımızın sayının artması kirayə mənzillərə tələbatı xeyli yüksəldib. Bununla belə, yayın əvvəllərindən etibarən ali məktəblərdə tədris prosesinin yekunlaşması ilə əlaqədar kirayədə yaşayan tələbələrin paytaxtdan rayonlara dönməsi mənzillərə tələbatı bir qədər azaldır. Bu da kirayə mənzillərin ucuzlaşmasına səbəb olur.

Artıq yeni tədris ilinin başlanmasına sayılı günlər qalır. Əvvəlki illərdə kirayədə yaşayan tələbələrin geriyə dönüşü, eləcə də bu il ali məktəblərə qəbul olunan gənclərin ev axtarışına çıxması paytaxtın kirayə mənzil bazarında yenidən canlanmaya səbəb olub. Bazarda isə kirayə mənzillərin sayı kifayət qədər olmadığından tələb təklifi üstələməyə başlayıb. Bu səbəbdən də indi, necə deyərlər, bazarın ağzı yuxarıdır. Yeri gəlmişkən, mənzillərini kirayəyə vermək istəyənlərin əksəriyyəti ailələrə üstünlük verməsi də tələbələrin ev tapmasını xeyli çətinləşdirir. Bu problemin aradan qaldırılmasının yeganə yolu isə tələbə yataqxanalarının tikilib istifadəyə verilməsidir. Düzdür, son illər paytaxtda və bölgələrdə bəzi özəl ali təhsil müəsisələri tərəfindən bu sahədə müəyyən addımlar atılıb. Amma ölkədə olan tələbə sayına görə yataqxanalar olduqca azdır. Ekspertlərin fikrincə, yeni tikiləcək yataqxanalardakı mənzillər tələbələrə kirayəyə verilərsə, bu, onların ev probleminin həlli ilə yanaşı, həmin binaları inşa etdirən ali təhsil müəssisələrinə də müəyyən dövrdən sonra əlavə gəlirlər gətirəcək.

Yeri gəlmişkən, bugünlərdə Nazirlər Kabineti tərəfindən "Çoxmənzilli binanın idarəedici təşkilatının seçilməsi üzrə açıq müsabiqə keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 1 iyul 2010-cu il tarixli qərarında edilən dəyişikliyi ölkənin kirayə mənzil bazarında bir yenilik kimi dəyərləndirmək olar. Belə ki, Baş nazir Əli Əsədovun imzaladığı yeni qərara əsasən, bundan sonra çoxmənzilli binaların idarə olunmasında sahə mülkiyyətçiləri ilə yanaşı, kirayəçilər də iştirak edə biləcəklər.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***



## Ekspert rəyi

**Elnur FƏRZƏLİYEV,**
**əmlak məsələləri üzrə ekspert**



Hər il ənənəvi olaraq avqust ayının sonlarından başlayaraq sentyabrın ortalarınadək bölgələrdən paytaxt Bakıya və digər iri şəhərlərə minlərlə tələbə üz tutur. Otən illərə nəzər saldıqda görürük ki, əvvəllər Bakı şəhərində kirayəlik mənzillərin sayı daha çox və qiymətləri nisbətən əlçatan olsa da, hazırda əmlak bazarında, xüsusən də kirayə bazarında ciddi qiymət artımı müşahidə olunur. Bununla yanaşı, kirayə mənzillərin sayı da gündən-günə azalaraq məhdudlaşır. Bunun da əsasə səbəbi 2016-cı ildən başlayaraq Nazirlər Kabinetinin 86 saylı sərəncamı ilə paytaxt Bakıda istismar müddətini bitirmiş və qəzalı vəziyyətə olan binaların sökülməsi ilə əlaqədardır.

Söküntü səbəbindən bugünədək çoxsaylı hündürmərtəbəli yaşayış binaları və fərdi həyət evlərindən ibarət yaşayış massivlərinin yerində yeniləri salınıb. Məlum olduğu kimi, hər bir çoxmərtəbəli binanın sökülməsi isə həmin binalardakı kirayəlik mənzillərin kirayə bazarından çıxması ilə nəticələnir. Digər tərəfdən, həmin binalarda yaşayan sakinlər sökülən binalarının yerində yenisinin tikilib onlara təhvil verilməsinədək kirayədə qalmalı olurlar. Bu müddət isə, təqribən, 2-3 ilədək davam edir. Bu da mərkəz və yaxın ərazilərdə nisbətən ucuz qiymətə olan kirayəlik mənzillərin sayının məhdudlaşmasına səbəb olur. Buna görə də həmin ərazilərdə kirayə mənzil tapmaq çətinləşdiyindən tələbələr məcburən payatxtətrafı kəndə və qəsəbələrə üz tuturlar. Ətraf ərazilərdəki kirayə mənzillərin qiyməti mərkəzə nisbətən isə daha ucuzdur. Bununla belə, kənar ərazilərdə kirayəlik mənzillər götürmək tələbələr üçün vaxt itkisinə və əlavə xərclərə səbəb olur. Bu da onların büdcəsinə öz mənfi təsirini göstərir.

Ötən əsrin 90-cı illərinin əvvəllərinədək bütün ali təhsil müəssisələrinin hər birinin öz yataqxanaları var idi. Lakin Birinci Qarabağ müharibəsindən sonra məcburi köçkünlərin bir hissəsi də tələbə yataqxanalarında sığınmalı oldular. dılar. Artıq yataqxanalarda məskunlaşmış məcburi köçkünlərin böyük əksəriyyəti dövlət tərəfindən mənzillə təmin olunub, onlar üçün şəhərciklər salınıb. Digər tərəfdən, uzun illər işğal altında qalmış torpaqlarımız düşməndən geri alınıb. Hazırda həmin ərazilərdə tikinti-bərpa işləri sürətlə davam edir, yeni kənd və qəsəbələr salınır, şəhərlərimiz bərpa olunur. Bu da məcburi köçkünlərimizin mərhələli şəkildə öz yurdlarına qayıtması üçün imkan yaradır.

Hazırda köhnə yataqxanaların böyük əksəriyyəti qəzalı vəziyyətdə olduğundan həmin binalarda yaşamaq mümkün deyil. Düşünürəm ki, tələbələrin kirayə mənzil probleminin həlli üçün birmənalı olaraq köhnə yataqxanalar sökülərək onların yerində daha müasir, daha yeni hündürmərtəbəli yataqxanalar tikilməli, tələbə şəhərcikləri salınmalıdır. Bu, tələbələrin problemini arada qaldırmağa imkan yaratmaqla bərabər, həm də paytaxt ərazisində kirayə mənzilləri əlçatan edər.

Digər tərəfdən, sökülən binaların sayı gündən-günə artır. Yeni tikilən binalarla köhnə binalardakı mənzillərin kirayə qiymətləri arasında, demək olar ki, iki dəfəyə yaxın fərq var. Bu da onu deməyə əsas verir ki, yaxın 10 il ərzində artıq paytaxtın mərkəzi və mərkəzə yaxın ərazilərindəki köhnə çoxmənzilli binalar sökülərək yeniləri ilə əvəzləndikcə kirayə mənzillər də indikindən, demək olar ki, iki dəfəyə yaxın daha baha qiymətlərə təklif olunacaq.

# Oktyabrda Bakıda Xəzər İnşaat Həftəsi keçiriləcək

## Silsilə sərgilər sahənin yeniliklərini və imkanlarını nümayiş etdirəcək

**Bu il oktyabr ayının 19-də Bakıda Xəzər İnşaat Həftəsi ilə payız sərgi mövsümünə start veriləcək. Ayın 21-dək davam edəcək tədbir çərçivəsində keçiriləcək sərgilər sırasına daha biri qoşulacaq. Belə ki, builki Xəzər İnşaat Həftəsi 3-cü Azərbaycan Beynəlxalq Qarabağın bərpası, yenidənqurma və inkişafı "Rebuild Karabakh", 28-ci Azərbaycan beynəlxalq inşaat "BakuBuild" və 15-ci yubiley beynəlxalq istilik, havalandırma, kondisionerləşdirilmə, su təchizatı, santexnika və üzgüçülük hovuzu "Aquatherm Baku" sərgiləri ilə yanaşı, 11-ci Xəzər beynəlxalq yol infrastrukturu və ictimai nəqliyyat "Road&Traffic" sərgisini də bir ad altında birləşdirəcək.**

Bakı Ekspo Mərkəzində keçiriləcək builki sərgilərin miqyası daha da genişlənərək ötən illərlə müqayisədə ekspozisiya sayında artım olacaq. Belə ki, ötən il tədbir Bakı Ekspo Mərkəzinin 2 zalını əhatə edirdisə, bu il artıq 3-cü zalın da istifadəyə verilməsi gözlənilir. Xəzər İnşaat Həftəsi zamanı nümayiş olunacaq yeniliklərdən biri isə sərgilərin Bakı Ekspo Mərkəzinin həm də açıq sahəsini əhatə etməsidir.



Yeri gəlmişkən, sərgilər əlamətdar bir ilə təsadüf edir. Məlum olduğu kimi, bu il Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bu əlamətdar hadisə Xəzər İnşaat Həftəsinin proqramında da öz əksini tapacaq.

"Caspian Event Organisers" və "Iteca Caspian" şirkətləri, eləcə də onların tərəfdaşları olan "Caspian Event Management", "ICA Events" şirkətlərinin təşkilatçılığı ilə keçirilən Xəzər İnşaat Həftəsinin iştirakçıları arasında Azərbaycan, Türkiyə, Almaniya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Cənubi Koreya, Çexiya, Çin, Fransa, İspaniya, İtaliya, Qazaxıstan, Macarıstan, Özbəkistan, Rusiya Federasiyası, Sloveniya və digər ölkələrdən olan şirkətlər yer alacaq. Sərgilərdə Almaniya, Macarıstan, Özbəkistan və Rusiya Federasiyası milli və regional stendlərlə təmsil olunacaq.

Qarabağın bərpasına həsr olunmuş yeganə və ilk ixtisaslaşmış sərgi olan "Rebuild Karabakh" bu il 3-cü dəfə təşkil ediləcək. Sərginin məqsədi təşkilat və müəssisələrin diqqətini Qarabağ və Şərqi Zəngəzurda baş verən müsbət dəyişikliklərə yönəltmək, eləcə də onları işğaldan azad olunmuş ərazilərin bərpasına cəlb etməkdir. Sərginin məqsədlərindən biri də burada iştirak edən beynəlxalq şirkətləri Qarabağda investisiya layihələrində iştiraka dəvət etməkdən ibarətdir. Elə sərginin əsas hədəfi də məhz Qarabağdakı quruculuq işləri üçün investisiyaların həcmini artırmaq, xarici şirkətlərin azad olunmuş ərazilərin inkişafında, infrastrukturunun bərpasında, mülki obyektlərin tikintisində iştirakını təmin etməkdir.

İqtisadiyyatın müxtəlif sahələrini təmsil edən yerli və xarici şirkətlərin sərgiyə olan marağı göstərir ki, "Rebuild Karabakh" ötən illər ərzində Azərbaycanda sərgi sənayesinin əhəmiyyətli hadisələrindən birinə çevrilib. Sərginin ölkəmiz üçün əhəmiyyətini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərgi iştirakçılarına salamlama məktubu göndərməsi də bir daha təsdiq edir.

Qeyd edək ki, "Rebuild Karabakh" sərgisi ekologiya, energetika, informasiya texnologiyaları, kənd təsərrüfatı, mədənçilik, nəqliyyat, qida sənayesi, sağlamlıq, enerjiyə qənaət sistemləri, ağıllı ev həlləri, təhlükəsizlik, təhsil, turizm və mədəni irs, eləcə də yol tikintisi və infrastrukturu bölmələri üzrə təşkil ediləcək. Yeri gəlmişkən, ölkəmizdə keçirilən bir sıra beynəlxalq sərgi və konqreslərin təşkilatçıları olan "Caspian Event Organisers" və "Iteca Caspian" şirkətləri "Rebuild Karabakh 2021" sərgisi çərçivəsində imzalanan Anlaşma Memorandumuna əsasən sərgi sahəsinin satışından əldə olunan gəlirin bir qismini işğaldan azad olunan ərazilərin bərpası və yenidən qurulması istiqamətində görülən işlərə dəstək məqsədilə Qarabağ Dirçəliş Fonduna ianə edib.

"BakuBuild" şirkətlərin tikinti sahəsində ən son nailiyyətlərini nümayiş etdirən və sonuncu texnologiyaları təqdim etmək imkanı yaradan platformadır. Sərgidə ziyarətçilər tikinti proseslərini əhəmiyyətli dərəcədə təkmilləşdirə biləcək bir çox başqa texnologiyalarla tanış olurlar. Qeyd edək ki, interyer, idman məhsulları, işıqlandırma, izolyasiya sistemləri, landşaft, tikinti material və məhsulları, tikinti istehsalat və avadanlıqları, eləcə də digər bölmələri əhatə edən "BakuBuild" müxtəlif şirkətlərin nümayəndələrini, təchizatçıları və tikinti peşəkarlarını bir platformada birləşdirir. Ziyarətçilər yeni işgüzar əlaqələr qurmaq, potensial tərəfdaşlıqları müzakirə etmək və peşəkar şəbəkələrini genişləndirmək imkanı əldə edirlər.

"Aquatherm Baku" sərgisi 15 ildir ki, istilik, havalandırma, hovuzlar, sauna, spa, kondisioner (HVAC), avadanlıqlar sahəsində bölgənin aparıcı peşəkar sərgisi mövqeyini qoruyur. Sərgidə hava təmizləyiciləri, kondisionerlər, radiatorlar, ventilyasiya sistemləri, istilik sistemləri, istilik izolyasiya materialları, hamam və cakuzi, saunalar, hovuzlar, qızdırıcılar, kompressorlar, soyuducular, çirkab (tullantı) suyu texnologiyaları, ətraf mühitin mühafizəsi texnologiyaları, filtrlər, boru kəmərləri, nasoslar, soyuducular, günəş enerjisi və sair kimi sektorlar təqdim olunur.

"Road&Traffic" sərgisi Azərbaycanda yol infrastrukturu sahəsində ixtisaslaşmış tədbirdir. Sərgi yol infrastrukturu, ictimai nəqliyyat, yol təhlükəsizliyi və informasiya texnologiyaları sektorlarının peşəkarlarının görüş yeridir. Sərgi yol, körpü və tunellərin layihələndirilməsi və inşasında bu sahənin mütəxəssislərinə müasir həll variantlarını təqdim etmək, habelə bazarın tələbatlarını və intellektual nəqliyyat sistemi (İNS) sektoruna aid olan məhsulların satış potensialını tədqiq etmək, Azərbaycanın ictimai nəqliyyat operatorları ilə görüşmək, yol-tikinti sektorunda çalışan podratçıların mütəxəssisləri ilə təcrübə mübadiləsi üçün nadir imkandır.

***M. QULİYEV,***
***"Xalq qəzeti"***

# Türk dövlətləri ilə ticarət dövriyyəsi 42 faiz yüksəlib

**2023-cü ilin yanvar-iyul aylarında Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsi 5 milyard 666,1 milyon dollar təşkil edib. Dövlət Gömrük Komitəsinin hesabatına əsasən, bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyard 673,3 milyon dollar və ya 41,9 faiz çoxdur.**



Qeyd edək ki, hesabat dövründə Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsi illik müqayisədə 40,5 faiz artaraq 4 milyard 746,1 milyon dollara, Türkmənistanla ticarət dövriyyəsi 3,6 dəfə artaraq 568 milyon 54,48 min dollara, Qırğızıstanla ticarət dövriyyəsi 4,8 dəfə artaraq 21,6 milyon dollara çatıb. Bununla belə, cari ilin 7 ayında Qazaxıstanla ticarət dövriyyəsi 32 faiz azalaraq 237,9 milyon dollar, Özbəkistanla ticarət dövriyyəsi isə 10, 9 faiz azalaraq 92,4 milyon dolar təşkil edib.

***"Xalq qəzeti"***



# Elektrik avadanlığı istehsalı çoxalıb

**Cari ilin ötən 7 ayında ölkənin kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində 130,9 milyon manatlıq məhsul istehsal olunub. Bu barədə "XQ"yə Dövlət Statistika Komitəsindən məlumat verilib.**

Qeyd edilib ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kompüter, elektron və optik məhsulların istehsalı 2 dəfə artıb, elektrik avadanlıqlarının istehsalı isə 0,2 faiz azalıb.

Hesabat dövründə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə stolüstü kompüterlərin istehsalı 3,5 dəfə, ölçmə cihazlarının istehsalı 2,2 dəfə artıb, güc transformatorlarının istehsalı isə 6,9 faiz azalıb.

***"Xalq qəzeti"***

# "Azərşəkər" İngiltərə şirkəti ilə əməkdaşlığa başlayır

**"Azərşəkər" MMC İngiltərənin "Genus ABS Global" şirkəti ilə ölkəmizdə heyvandarlıq təsərrüfatının inkişaf etdirilməsi sahəsində birgə əməkdaşlıq edəcək.**



Bu barədə "XQ"yə İqtisadi Zonaların İnkişafı Agentliyindən məlumat verilib. Qeyd ounub ki, bu məqsədlə "Azərşəkər" MMC ilə İngiltərənin Genus ABS Global şirkəti arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

***"Xalq qəzeti"***

# Cənubi Qafqazda sülhə qarşı çıxanlara diplomatik mesaj

## Prezidentin köməkçisinin sosial şəbəkə paylaşımına sözardı

(əvvəli 1-ci səhifədə)

Göründüyü kimi, Prezidentin köməkçisi iki-üç kəlmə ilə son dərəcə vacib mesaj verdi. Bu mesaj, ilk növbədə, ümumən yolun bəşəri anlamlı mahiyyəti barədə düşünməyə vadar edir. Yəni Azərbaycanın apardığı quruculuq işləri bəşəri hadisədir, bütövlükdə, insanlığa faydadır. Axı işğaldan azad olunmuş torpaqlarımızda salınan hər bir yol, bütövlükdə, Cənubi Qafqaz regionunu tərəqqiyə və inkişafa aparan böyük göstəricidir. Region isə yalnız orada yaşayan xalqlar deyil, bütövlükdə, dünya üçün müstəsna əhəmiyyətə malikdir və bu amil çoxsaylı beynəlxalq toplantılarda dəfələrlə dilə gətirilib.

***

Əlbəttə, Cənubi Qafqazın gələcək inkişaf istiqamətlərinin vurğulanmasındakı ən mühüm mesajların müəllifi Prezident İlham Əliyevdir. Azərbaycanın Qafqazda yeni sülh və əməkdaşlıq erasını fəal şəkildə təşviq etdiyini deyən dövlətimizin başçısı ötən il aprelin 29-da ADA Universitetində keçirilmiş “Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq” mövzusundakı beynəlxalq toplantıda belə demişdir: “Biz separatizm, erməni təcavüzü səbəbindən otuz il həmin fürsəti əldən qaçırmışıq. Cənubi Qafqaz inteqrasiya etməmişdir. Bəli, Azərbaycan və Gürcüstan arasında ikitərəfli və artıq beynəlxalq səviyyədə çox sıx əməkdaşlıq var. Bu, vacibdir. Lakin, eyni zamanda hesab edirəm ki, Ermənistanda, həmçinin anlamalıdırlar ki, onlar bu bölgədə təcrid olunmuş ada kimi yaşamaqda davam edə bilməzlər. Onlar bizimlə münasibətləri normallaşdırmalıdırlar, Azərbaycana və Türkiyəyə ərazi iddialarına son qoymalıdırlar və Cənubi Qafqazda üçtərəfli səviyyədə hər hansı qarşılıqlı təmasdan çəkinməli deyillər”.

***

Azərbaycan Prezidentinin bu fikrindən sonra H.Hacıyevin “Twitter” paylaşımındakı ikinci məqama keçid etməyin tam zamanıdır. Hikmət müəllim “yollarda sədlər və maneələr yaradan digər ölkələr” məntiqini elə-belədən gündəmə gətirmir. Dövlətimizin başçısı diqqətə çatdırdığımız iqtibasda Ermənistan üzərinə köklənirdi. Onun köməkçisinin fikirlərindən gəlinən qənaət isə budur ki, İrəvana dəstək göstərənlər da onunla birgə Cənubi Qafqazda ölkəmizin rəhbərliyi ilə hərəkətə başlayan inkişaf qatarının çarxlarına çomaq soxmaqdadırlar.

Bəli, cənab Hacıyev mesajı ilə dünyanın bəlalərini görməsinin və nəticə çıxarmasının vacibliyini vurğulayır. Dünya yolun timsalındakı böyük mədəniyyət hadisəsi ilə vandallıq arasında seçim etməlidir. Azərbaycan seçmək üçün ortaya sübutlar qoyur. H.Hacıyev özü dəfələrlə xaricdən gələn qonaqlarla bərabər, erməni vandallığının izlərini hələ də saxladığı torpaqlarımızda olub, onları əyani vəziyyətlə tanış edib. Ümumən, dövlətimiz mövcud istiqamətdə sistemli və ardıcıl iş aparmaqdadır.

Ancaq dünyanın, böyük ölçüdə, Ermənistanı düz yola gətirmək üçün əməli fəaliyyət aparmadığını da görürük. Əksinə, baş verənlər onu göstərir ki, beynəlxalq aləm İrəvanın avantürizminə, necə deyələr, “züy tutmaqla” məşğuldur. H.Hacıyev qısa paylaşımı ilə həm də bu məqama diqqət çəkmiş oldu. Eyni zamanda, onun “yol kəsənlər” məntiqi, istər-istəməz keçmişə ekskurs zərurəti yaradır. Cənubi Qafqazda yol kəsənlər kimlər olub? Yollarda basqınlar, quldurluq edənlər, qətllər törədənlər kimlərdir? Erməni avantüristləri!

“Xalq qəzeti”nin yaşlı əməkdaşları 1988–1991-ci illəri xatırlayarkən, Qarabağın müxtəlif bölgələrində yaşayan sıravi ermənilərin də qəzetə məktublar yazdıqlarını, millətçi və şovinistlərin yaramaz əməllərinə qarşı tədbir görülməsi üçün xahişlər etdiklərini, hətta yalvardıqlarını vurğulayırlar. Tədbir görülməyib, kimdir müqəssir, yazımızın mövzusu bu olmadığından, məsələnin üzərində dayanmaq istəmirik. Həm də görünən dağa nə bələdçi...

Ancaq tarix təkrarlanır. Bu gün də erməni avantürizmi köhnə “amplua”sındadır. Yol kəsməklə məşğuldur. Kəsilən yol isə həm də mədəniyyətin qarşısındakı əngəldir. Nəzərə alaq ki, müxtəlif xalqların dinc, əmin-amanlıq şəraitində birgə yaşamalarının özü də böyük mədəniyyət hadisəsidir. Digər tərəfdən, Prezident İlham Əliyev və ölkəmizin rəsmiləri dəfələrlə onu da bildiriblər ki, Cənubi Qafqazda nəhəng nəqliyyat xablarının yaradılmasının hədəflədiyi inkişafdan Ermənistanın da, Azərbaycan ərazisində yaşayan ermənilərin də faydalanmaq imkanları var. Bunun müqabilində nə görürük? Hikmət müəllimin vurğuladığı kimi, yolların kəsilməsini. Nəzərə alaq ki, yol kəsənlər əllərinə düşən ilk imkandaca baş kəsməyə də hazırdırlar...

***

Qarabağın erməni əhalisi arasında elə təbliğat aparılır ki, sanki Azərbaycan vandal ölkədir, bölgədə soyqırımı gerçəkləşdirmək istəyir və sair. Nəticədə Laçındakı sərhəddə yaratdığımız nəzarət–buraxılış məntəqəsindən keçib Ermənistana yol alan erməni köçlərini görürük. Sual olunur: onilliklərdir Qarabağda yaşayan, oranı yurd edən sadə erməni nə üçün öz evini tərk etməlidir? Nəyə görə öyrəşdiyi, uyğunlaşdığı mühitdən aralı düşməlidir? Erməni avantürizminin təmsilçiləri, Ermənistan hakimiyyəti, o cümlədən Qarabağdakı separatçı rejim bu suallara cavab verməyi heç ağlının ucundan da keçirmir. Çünki onların sarsaq baxışlarında insanların didərgin salınması adi haldır. Hələ bundan dividend də götürməyə çalışırlar. Baxın, Ermənistan baş naziri Nikol Paşinyan ölkə hökumətinin iclasında utanmadan bildirir ki, Azərbaycan Laçın yolundan keçib Ermənistana üz tutanların geri qayıtmalarına imkan verməyəcək. O, yaxşı bilir ki, gedənlər qayıtmaq üçün getmirlər, bölgəni birdəfəlik tərk edirlər. Ancaq ölkəmizə böhtan atıb xal qazanmaq yolu tutur. Öz aləmində siyasi xal qazanır...



Bir halda ki, tarixə üz tuturuq, bununla bağlı “örnəkləri” də yada salaq. 1988–1991-ci illərdə indiki Ermənistan ərazisindən əsrlərdir orada yaşayan azərbaycanlılar qovuldular. Həmin vaxt Spitakda zəlzələ olmasaydı, heç qaçmağa macal da tapmayacaqdılar. Hamısı qətlə yetiriləcəkdi. Bunu sübuta yetirən faktlar var. Ancaq Xocalıda insanlar rayonu tərk edə bilmədilər... İşğal və bir milyondan artıq vətəndaşımızın qaçqın və məcburi köçkün həyatı yaşamağa, çadır şəhərciklərində, vaqonlarda ömür sürməyə məhkumluğu başlandı.

***

Bəli, erməni başıpozuqların insanın həyat elementlərindən məhrumluğunun necə böyük məşəqqət olduğunu anlamadığının nəticəsidir ki, Qarabağdakı erməni əhali ərazini tərk edir. Halbuki, Azərbaycan sıravi insanların deyil, bölgədə hələ də varlığını sürdürən, sayı on minə çatan qeyri-qanuni hərbi birləşmələrin çıxarılmasını istəyir...

Hazırkı mənzərə onu da deməyə əsas verir ki, ermənilər mədəniyyətdən üz döndərirlər. Bu gün Ağdam–Xankəndi yolu, eyni zamanda, mədəniyyət yoludur. Mədəniyyət isə həm də sülh deməkdir. Uzun illər sözügedən yol azərbaycanlıların və ermənilərin sülh şəraitindəki yaşamlarının göstəricisi, Hikmət Hacıyevin də ifadə etdiyi kimi, bölgədəki sivilizasiyanın mədəni və həlledici komponenti olub.

Ancaq sonda bunu da bildirək ki, kiminsə nə deməsindən, erməni şovinist–revanşistlərinə hansı dəstəyi göstərməsindən asılı olmayaraq, Ağdam–Xankəndi yolu açılacaq. Bakı–Xankəndi qatarı da işləyəcək. Bir sözlə, Azərbaycanın əzmi və iradəsi ilə qurulan yollar Cənubi Qafqazdan dünyaya mədəniyyət və sülh yayacaq. Bu, geriyə dönüşü olmayan prosesdir.

***Ə.CAHANGİROĞLU,***
***“Xalq qəzeti”***

---

# Müsyö Makronun utopik revanşizmi

## Paris suda boğulanların xilasının yalnız onların özlərindən asılı olduğunu unutmamalıdır

(əvvəli 1-ci səhifədə)

Emmanuel Makronun mediaya dediyi “Laçın dəhlizinin açılması üçün Azərbaycana təzyiq edilməlidir” sözləri də həmin ismarıcın tək Paşinyan iqtidarına deyil, Bakının da diqqətinə çatdırılmasına hesablanıb. Artıq Fransa Bakıya sadəcə siyasi təzyiqlərlə kifayətlənmədiyini, üstəlik, Azərbaycanın Qarabağ iqtisadi rayonundakı qondarma rejimi, separatizmi açıq şəkildə dəstəklədiyini gizlətməyə çalışmır. Bu gün İrəvandakı revanşistlərə, Xankəndidəki separatçılara ən böyük ümid verən tərəfin məhz Fransa olduğunu rahatca söyləyə bilərik. Gözlə görünən bu həqiqəti gücləndirən məqamlardan biri də BMT TŞ-nin son iclasından sonra Ermənistan hakimiyyəti və Xankəndidəki separatçıların verdikləri açıqlamalardır.

Azərbaycan BMT, ATƏT, AŞPA və Aİ kimi beynəlxalq təşkilatlara, onların qərarlarına həmişə hörmətlə yanaşıb. Bunu dünya birliyi də yaxşı bilir. Bəs onlara qarşı ikiüzlülük, saxtakarlıq edən, qərarlarını yerinə yetirməyən Ermənistan nə edir? “Humanitar fəlakətlə”, “acından ölmək təhlükəsi ilə üzləşmiş” Qarabağın erməni sakinləri üçün yardımlar, bir də qərarlar dilənməklə məşğuldurlar. İndi nəinki “qoca qitə”də, həmçinin okeanın o tayında da hay zarıltısını dinləməkdən beziblər.

### Bütün cinahlarda üstünlüyü ələ almaq!

Fransa liderinin qətnamə barədə məlum açıqlaması və BMT TŞ-da yeni cəhd anonsu Cənubi Qafqazda onun maraqlarını nəzərə almayan Bakıya qarşı təzyiq forması, həm də ermənilərə “görürsünüz, biz əlimizdən gələni edirik” mesajının verilməsi məqsədini daşıyır. Parisin bu “diplomatik gedişi” ilə paralel olaraq Hayastanın baş naziri Nikol Paşinyan sülh müqaviləsi ilə bağlı Azərbaycana yeni təkliflər göndərdiyini bildirdi. O, son vaxtlar təkrarlamaqdan usanmadığı “humanitar fəlakət”, “Dağlıq Qarabağ (?) ermənilərinin təhlükəsizliyi” barədə saxta iddialarını da davam etdirdi. İrəvanın sülh müqaviləsinə əlavə təkliflərinin yalnız və yalnız vaxtı uzatmağa, Xankəndidəki separatçı-xunta rejimini “ayaqda saxlamağa” hesablandığını söyləmək olar.

Fransanın hazırladığı və BMT TŞ-də qəbulunu arzuladığı qətnamənin aqibətinin necə olacağı sual altındadır. Bu barədə əvvəllər də yazmışdıq: BMT TŞ-də hansısa qərarın – qətnamə, bəyanat, yaxud press-reliz iki yolla qəbul edilə bilər. Ya TŞ-nin daimi üzvlərinin yekdil qərarı ilə, ya da onlardan savayı qeyri-daimi 10 üzvdən 9-nun səsini qazanmaqla. Amma bu zaman 5 daimi üzvdən heç biri veto hüququndan istifadə etməməlidir. Daxili nizamnamə nöqteyi-nəzərindən baxdıqda Fransanın təqdim etməyə hazırlaşdığı qətnamənin BMT TŞ-də qəbulu müşkül görünür. Paris və İrəvan unutmamalıdır ki, TŞ-nin 15 üzvü arasında Azərbaycanı dəstəkləyən xeyli ölkə var. Bunlardan başqa, əksər ölkələrin səfirləri Azərbaycana münasibətdə neytral mövqe sərgilədilər. Ən əsas məsələ isə TŞ-nin daimi üzvü Rusiyanın bölgədə zəifləməkdə olan maraqlarına görə veto hüququndan istifadə edəcəyinin qaçılmaz fakt olmasıdır. Axı Kreml rəsmi Parisin separatçıları xilas edə bilməsə belə, İrəvanda Moskvanı əvəzləmək niyyətindən xəbərdardır. Həm Cənubi Qafqazdakı mövcud geosiyasi duruma, həm də BMT TŞ-də qüvvələr nisbətinə nəzər yetirdikdə Fransanın “bütün cinahlarda üstünlüyü ələ almaq” taktikasının heç bir perspektivə malik olmadığı üzə çıxar.

### Xilası uzaqda axtaranlara məsləhət

Ermənistan tərəfindən “humanitar böhran”, “blokada” bəhanələri ilə edilən siyasi manipulyasiyalar təxribat xarakterli hərbi fəaliyyətlə eyni zamanda baş verir. Son həftələr ərzində beynəlxalq hüquqla bərabər, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatının 4-cü bəndinin tələb etdiyi öhdəliyin yerinə yetirilməməsi müzakirə mövzusuna çevrilib. İrəvan tərəfindən bu öhdəliyin kobud pozuntusu kimi Azərbaycanın Qarabağ iqtisadi rayonunda qeyri-qanuni silahlı birləşmələrin, Ermənistan silahlı qüvvələrinin tör-töküntüsünün müəyyən ərazilərdə hərbi-mühəndis istehkamları yaratması, eləcə də, digər təxribatların artması müşahidə olunur. Bu qanunsuz silahlı quldurların respublikamızın suveren ərazisində yerləşdirdikləri radioelektron döyüş texnikasından istifadə etməsi, mülki təyyarələrimizin həmin ərazinin üzərindən uçuşuna mane yaratması xüsusi narahatlıq doğurur. Söhbət təkcə “Azərbaycan Hava Yolları”nın deyil, xarici ölkələrin təyyarələrinin təhlükəsizliyi üçün ciddi təhlükə yaradan radioelektron müdaxilələrdən gedir.



Ermənistan hakimiyyəti düzdüyü hərbi-siyasi labirintdən qurtuluş yolunun yalnız Bakı ilə dialoqdan, onun beynəlxalq hüquqa və məntiqə söykənən təkliflərinə müsbət yanaşmaqdan keçdiyini anlamalıdır. Təkcə anlamaqla iş bitmir, həm də reallığı qəbul etməlidir. Necə deyərlər, suda boğulma təhlükə ilə üzləşənlərin xilası onların özlərindən asılıdır. İrəvan sülhə gəlməklə həm də kənarda, uzaqda dəstəkçilər axtarışından da canını qurtarmış olacaq. Paşinyan onu sülh prosesində, beynəlxalq platformalarda siyasi avantüralara, bölgədə isə təhlükəli hərbi hərəkətlərə təhrik edən aktorların, diaspor-lobbi-daşnak çetesindən imdad gözləməyin səmərəsiz olması ilə barışmalıdır. Bütün bunların ona heç də yaxşı sonluq vəd etmədiyi barədə də ciddi düşünməlidir. Sonra günahlandırmağa kimsəni tapmayanda, “miatsum” nağılının Ermənistana xeyirli heç nə gətirmədiyini anlayanda gec ola bilər. Biz Azərbaycan türklərinin sonrakı peşmançılığın fayda vermədiyi barədə məşhur zərb-məsəlini xatırlatmaqla yanaşı, qarşınızdakı gücün nəyə qadir olduğunu unutmamağınızı tövsiyə edərdik.

İrəvan-Paris tandeminin yeni səylərinin də fiaskoya uğrayacağına indidən əminik. BMT TŞ-də hətta az ehtimal olunan hansısa anti-Azərbaycan sənədi qəbul olunsa belə, onu Nyu-Yorkun siyasi zibilxanasına atılmaqdan qeyri perspektivi yoxdur. Kart-blanşını İrəvanın qarşına qoyaraq növbəti dəfə revanş götürmək istəyi ilə alışıb-yanan Makronun bu dəfə də döyüş platformasını başıaşağı tərk edəcəyini proqnozlaşdıran ekspertlərlə razılaşırıq. Onun başını dincə qoyub memuar yazmaq kimi gözəl fürsəti olacaq. Necə ki indi onun sələfi Nikola Sarkozi bu işlə məşğuldur. Amma bir məsələdə şübhəmiz var. Emmanuel kağıza köçürəcəklərində Bakının gözəlliyini etiraf edən Nikola qədər səmimi və dürüst ola biləcəkmi? Nə qədər çətin görünsə də, buna inanmaq istərdik.

***İmran BƏDİRXANLI,***
***“Xalq qəzeti”***

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Makronun buna qədər BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı qətnamə layihəsini keçirmək üçün göstərdiyi iki cəhdi uğursuzluğa uğrayıb. O, birinci cəhdini 44 günlük müharibənin gedişində etmişdi. Həmin məqamda məsələyə Böyük Britaniyanın müdaxiləsi, Azərbaycanın Qoşulmayanlar Hərəkatındakı üzv-tərəfdaşları qətnamənin mətninə müəyyən dəyişiklikləri təklif etməklə onun Təhlükəsizlik Şurasından keçməsinin qarşısını aldı. İkinci dəfə Paris keçən il sentyabr döyüşlərindən sonra buna cəhd eləmişdi. Bu dəfə Rusiya Fransaya qarşı çıxdı. Çünki Azərbaycan–Ermənistan münasibətlərinin normallaşmasında üçtərəfli Bəyanata əsaslanan Moskva bölgədə özündən kənar proseslərin baş verməsi ilə razılaşa bilməzdi. Yenə Böyük Britaniya və ABŞ buna öz etirazlarını bildirdi və nəticədə Paris layihəsini geri götürməyə məcbur oldu.

İndi isə Makron “Dağlıq Qarabağa humanitar yardım” adı altında sənədin BMT-də qəbuluna ümid edir. Düşünürəm ki, Rusiya yenə də həmin qətnamədə özünün rolunun göstərilməsini tələb edəcək, ABŞ və Böyük Britaniya isə buna qarşı çıxacaqlar. Yəni Makron növbəti dəfə aciz duruma düşəcək. Nə qədər dəridən-qabıqdan çıxsa da, rəsmi Parisin bu günə qədərki cəhdləri puç olub, yenə belə olacaq. Bununla da Fransa iqtidarı bu məsələdə nə dərəcədə dişsiz olduğunu təkrarən dünyaya göstərmiş olacaq. Hətta, fərz etsək ki, tövsiyə, çağırış xarakterli bir qətnamə qəbul edildi, bəs onun icra mexanizmi? Ermənistan 30 ilə yaxın BMT-nin dörd qətnaməsini vecinə almadı, indi bir parça kağızı əlində yelləməklə nəyə nail ola biləcək? Heç nəyə!

Danışır keçmiş əməkdaşlarımız

# Canlı jurnalistika məktəbi

**Mənim doğma “Xalq qəzeti” barədə danışmağım həm asan, həm də çətindir. Ona görə asandır ki, ömrümün, təxminən, 60 ilini “Xalq qəzeti”nin redaksiyasında keçirmiş, burada çalışan əməkdaşların çətinliklərini və uğurlarını mən də yaşamışam. Çətindir ona görə ki, qəzetin bir əsrdən çox dövrü əhatə edən fəaliyyətini tam əhatə etmək xüsusi tədqiqat işi tələb edir. 85 yaşlı ağsaqqalın belə işə girişmək imkanı nə dərəcədə olarsa, deməyə ehtiyac yoxdur. Amma bir danılmaz faktı da deməmək olmaz ki, bu mətbuat orqanı nəşr olunduğu bütün dövrlərdə Azərbaycan xalqının qəzeti olub. Onun qayğılarından, istək və arzularından yazıb, kədərinə kədərlənib, sevincinə şərik çıxıb. İnsanlar ən son yenilikləri “Xalq qəzeti”ndən öyrəniblər. Haqları tapdananda ona müraciət ediblər, məhz onun məsələyə müdaxiləsindən sonra həqiqət öz yerini tapıb.**



“Xalq qəzeti”nin elə dövrləri olmuşdur ki, həftədə altı dəfə – hər gün 500 mindən çox tirajla çıxmışdır. Bu, o deməkdir ki, hər bir Azərbaycan ailəsi onu oxuya bilib, onun haqq səsini eşidib. Qəzetin mövzu rəngarəngliyi həmişə diqqəti cəlb edib. Qabaqcıl ictimai fikrin, milli tərəqqi ideyasının təbliğinə, xalqımızın azadlıq arzularına, milli şüurun, mədəniyyətin formalaşmasına böyük təsiri olan yazılar oxucuları cəmiyyətdə baş verən hadisələrə açıq gözlə baxmağa sövq edib. Həmin yazıların ritorikadan uzaq, aydın və səlis dildə, məsələlərin qoyuluşu və şərhi baxımından yüksək qəzetçilik mədəniyyəti səviyyəsində hazırlanmasında müxtəlif vaxtlarda bu redaksiyada çalışmış öz dövrünün görkəmli jurnalist və publisistlərinin əməyi çox olmuşdur.

Bu, bir faktdır ki, “Xalq qəzeti” həmişə xalqa, ölkə ictimaiyyətinə arxalanıb. Onun ətrafında böyük fəhlə-kəndli müxbirlər ordusu olub. Hər gün bu qəzetə müxtəlif peşə sahiblərindən onlarca məktub gəlirdi. Redaksiyada hər bir məktub diqqətlə öyrənilir, onların bir çoxu qəzetdə dərc edilirdi. Qəzet beləliklə ictimaiyyətlə sıx əlaqə qururdu. Elə ona görə də, “Xalq qəzeti” Azərbaycan zəhmətkeşlərinin sevimli qəzetinə çevrildi. Adamlar onun səhifələrində ölkə daxilində və beynəlxalq aləmdə baş verən ən son hadisələrlə tanış olur və bu, qəzetə marağı gündən-günə artırırdı.

Mən şahidəm, ulu öndər Heydər Əliyevin ölkəmizə birinci dəfə rəhbərlik etdiyi illərdə respublikamız böyük tikinti meydançasına çevrilmişdi. Həmin prosesin təbliğində bizim qəzet öndə gedirdi. Yeni tikilən fabrik və zavodlar, neft istehsalının artırılması üçün görülən tədbirlər, kənd təsərrüfatının inkişafına göstərilən qayğı barədə qəzetdə müntəzəm yazılar verilirdi.

Bununla yanaşı, qəzet təsərrüfatsızlığı, israfçılığı, bürokratizmi, ölkədə gedən quruculuq işlərinə mane olan bütün mənfi halları, çatışmazlıqları daim kəskin tənqid edir, kütlələrin yaradıcılıq təşəbbüsü ilə meydana gələn qabaqcıl təcrübənin geniş yayılmasına çalışırdı. Azərbaycanda elmin, ədəbiyyatın və incəsənətin inkişafına dair verilən yazılar rəğbətlə qarşılanırdı. Ən görkəmli elm, mədəniyyət və incəsənət xadimləri bu qəzetin səhifələrində söz deməyə xüsusi maraq göstərirdilər.

1941-1945-ci illər müharibəsi dövründə “Kommunist” qəzeti iki xətti əsas götürmüşdü: ön və arxa cəbhə xətlərinin paralel, həm də bir-biri ilə sıx bağlı işıqlandırılmasını. Müharibə qələbə ilə başa çatdıqdan sonra qəzet öz fəaliyyətinin istiqamətini dəyişdi. İndi qarşıda duran başlıca vəzifə müharibənin vurduğu ziyanı tez bir zamanda aradan qaldırmaq, sənayeni və kənd təsərrüfatını sürətli inkişaf yoluna çıxarmaq, insanların güzəranını yaxşılaşdırmaq idi. Qəzet verdiyi yazılarda daim belə bir fikri aşılayırdı ki, bunlara yalnız yaxşı işləməklə, hər bir insanın üzərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirməsi ilə nail olmaq mümkündür.

Mən bu sətirləri qələmə alarkən Azərbaycanın bugünkü həyatını və həmin həyatın güzgüsünə çevrilən “Xalq qəzeti”nin fəaliyyətindəki müsbət tendensiyaları qeyd etməyi də borc bilirəm. Ali Baş Komandanımızın, xalqımızın və Azərbaycan Ordusunun qətiyyəti nəticəsində qazandığımız şanlı Qələbəni “Xalq qəzeti” redaksiyası böyük məsuliyyətlə işıqlandırmışdı. İndi isə qəzetin hər nömrəsindən işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin sədasını “eşidirik”. Son bir ildə “Xalq qəzeti”nin xalqın qəzeti elan edilməsini də alqışlayıram.

Doğrudur, yubiley günlərində tənqidi fikirlər səsləndirilməz. Amma bir fikir ki, ümumi işlərin xeyirinədir, o, mütləq deyilməlidir. Üstəlik, qəzetin fəaliyyətində yaranmış canlanma, müasirləşmə də bunu tələb edir. Belə ki, dövlət başçımız az qala hər həftə xalqa xidmət etməyən məmurları tənqid edir, bir çoxu işdən çıxarılır və ya cəzalandırılır. Azərbaycan mətbuatı isə heç kəsi tənqid etmir. Təbii ki, “Xalq qəzeti”ndəki bəzi kiçik tənqidlər istisna olunmaqla.

Mənim yadımdadır, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev qəzetin, demək olar, bütün nömrələrini nəzərdən keçirir, böyük problemlərə toxunan yazıları təqdir edir, zəif yazılar barədə fikirlərini söyləyirdi. O vaxt qəzetin elm və təhsil şöbəsinin müdiri Kazım Ələkbərov Azərbaycan Elmlər Akademiyası Neft və Kimya Prosesləri İnstitutunda yüksək vəzifə tutan üç akademiki kadr siyasətində qohumbazlıq etdiklərinə və ümumiyyətlə, institutda narazılığa səbəb olmuş bir sıra başqa əməllərinə görə kəskin tənqid etmişdi. Heydər Əliyev məqalə dərc olunan gün qəzetin redaktoru Ağababa Rzayevə zəng vurmuş, məqalə müəllifinə təşəkkürünü çatdırmağı və bu xətti gələcəkdə də davam etdirməyi tapşırmışdı. Ölkədə yaranmış yeni ab-hava insanlarda nöqsanlara qarşı barışmazlığı artırmışdı. Fikrimcə, həmin tendensiya bu gün də davam etdirilməlidir.

Milli mətbuatımızın bayraqdarı olan “Xalq qəzeti”ni yubiley nömrəsi və 104 illiyi münasibətilə təbrik edirəm. Yaşım çoxdur. Ona görə də özümə arzu edirəm ki, “Xalq qəzeti”nin Xankəndidəki müxbirinin hazırladığı reportajları da oxuya bilim. Oxuyaram, inşallah! O gün uzaqda deyil.

***Telman HEYDƏROV,***
***“Xalq qəzeti”nin***
***sabiq şöbə müdiri***

**Mənim “Kommunist” qəzetində (bugünkü “Xalq qəzeti”) işləməyimin maraqlı tarixçəsi olub. 1971-ci ilin sentyabrı idi. Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsinin beşinci kursunda dərslər yenicə başlamışdı. Kursumuzun tələbələrini paytaxtdakı respublika qəzet və jurnallarına təcrübəyə göndərdilər. Bölgüdə mən “Kommunist” qəzetinə düşdüm. İnstitutun məktubu ilə redaksiyaya gəldim və məni üçüncü mərtəbədə əyləşən qəzetin redaktor müavini Adil Cavadlıya yönəltdilər. O da telefonla ədəbiyyat və incəsənət şöbəsinin müdiri Əfqan Əsgərova zəng edib məni beşinci mərtəbəyə – 22-ci otağa göndərdi.**



İlk tanışlığımızdan Əfqan müəllim dedi ki, yaxşı vaxtda gəlmisən. Sabah Azərbaycan Dövlət Dram Teatrında yeniyetmə özfəaliyyət üzvlərinin “Oxu tar...” müsabiqəsi keçiriləcək, oradan bir material hazırlayarsan. Bunları deyib müsabiqəyə dəvətnaməni və tədbirin proqramını mənə verdi. Yarım saatdan sonra isə qəzetdə təcrübədə olmağım barədə redaksiyanın rəsmi blankında arayış da təqdim etdi. Üç aylıq təcrübədə qəzetdə incəsənətə aid müxtəlif yazılarım dərc olundu. Sonra da qəzetlə əməkdaşlıq edirdim.

Əfqan müəllimin təklifi ilə qəzetin redaktoru Ağababa Rzayev instituta tələbnamə yazıb məni ora işə götürmək istədiyini bildirdi. Beləliklə, 1972-ci ildə qəzetə ədəbi işçi (müxbir) götürüldüm. Sonra baş ədəbi işçi, publisistika və felyeton şöbəsinin müdiri işlədim. Ötən

# Mənəviyyat körpüsü

əsrin səksəninci illərinin ortalarında mədəniyyət, ədəbiyyat və incəsənət, publisistika, felyeton şöbələrini birləşdirdilər və ora rəhbər təyin olundum. 1991-ci ilin payızına kimi bu kollektivdə çalışdım.

Qısa arayışı ona görə verdim ki, oxuculara bu kollektivin mehribanlığını, peşəkarlıq prinsiplərini və gənclərə böyük qayğı ilə yanaşdıqlarını, jurnalistika şərəfini həmişə uca tutduqlarını çatdırım. Sözsüz ki, qəzet, ilk növbədə, tələbkarlığı, həqiqətə ləyaqət və vicdanla ayna tutmağı, tənqidi faktlara məsuliyyətlə yanaşmağı öyrənmişəm.

Bəzən cavanlar “Kommunist” qəzetindən söhbət düşəndə hər şeyə “partokrat” damğası vururlar. Bir faktı xatırlatmaq istədim. 1977-ci il yanvar ayının 7-də qəzetdə “Restoranda orkestr çalır...” sərlövhəli yazım dərc olundu. Məqalədə Bakıda restoranların böyük əksəriyyətində fəaliyyət göstərən ermənilərdən ibarət dəstə öz dillərində və




mövcud sistemin ideoloji ruporu idi. Bununla belə, mənim çalışdığım şöbələr milli mədəniyyətimizin və incəsənətimizin bir növ mətbu salnaməsinin davamçısı idi. Beş cildlik “Azərbaycan teatrı” kitabını işləyəndə, ilk növbədə, 1919-cu ildən XX əsrin sonlarına qədər olan dövrdə Bakıda mövcud olan teatrların repertuarı, premyera tarixləri barədə dəqiq məlumatları, möhtəşəm tamaşalar barədə yazılmış resenziyaları məhz bu qəzetin səhifələrindən oxuyub öyrəndim.

Qəzet ölkənin ədəbi-mədəni durumu barədə daim müxtəlif janrlı yazılar verirdi. Yazıçı və şairlərdən Süleyman Rəhimov, Əli Vəliyev, Mirzə İbrahimov, İsmayıl Şıxlı, Süleyman Rüstəm, Rəsul Rza, Nəbi Xəzri, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Nigar Rəfibəyli, Mədinə Gülgün, Mirvarid Dilbazi, Əliağa Kürçaylı, Nəriman Həsənzadə, SSRİ Xalq artistlərindən müğənni Rəşid Behbudov, Zeynəb Xanlarova, Müslüm Maqomayev, aktyorlar İsmayıl Dağıstanlı, İsmayıl Osmanlı, rejissor Mehdi Məmmədov, bəstəkarlar Qara Qarayev, Soltan Hacıbəyov, Niyazi, Azərbaycanın Xalq artistləri, musiqiçilər və aktyorlar Xan Şuşinski, Əhməd Bakıxanov, Şövkət Ələkbərova, Sara Qədimova, Arif Babayev, Habil Əliyev, Əfrasiyab Bədəlbəyli, Şəmsi Bədəlbəyli, Azər Rzayev, Nəsibə Zeynalova, Həsən Turabov, Tofiq Kazımov, Məmmədrza Şeyxzamanov, Şəfiqə Məmmədova, Amaliya Pənahova, Səyavuş Aslan, Yaşar Nuriyev, SSRİ Xalq rəssamları Mikayıl Abdullayev, Tahir Salahov, Toğrul Nərimanbəyov, Azərbaycanın Xalq rəssamları Səttar Bəhlulzadə, Maral Rəhmanzadə, Elmira Şahtaxtinskaya, Ömər Eldarov və onlarca digər sənətkarlarla söhbətlərim, müsahibələrim, portret-oçerklərim “Kommunist” qəzetində çap olunb. Bu redaksiyanın məşhur qələm sahibləri Ağababa Rzayevdən, Adil Cavadlıdan, Rəşid Mahmudovdan, Cəmil Əlibəyovdan, Əfqan Əsgərovdan, Alp Ağamirovdan, Hidayət Zeynalovdan, Rafael Nağıyevdən, Məryəm Həsənzadədən, Əli İldırımoğludan, Əhməd İsayevdən... jurnalist etikasını, Azərbaycan dilində səlist yazmağı, xeyirxahlığı, mövzuya rusca bərbad repertuarla, siyasi, həm də diversiya mahiyyətli “mahnılarla” çıxış edirdilər.

Redaktor Ağababa Rzayev daxili telefonla saat 11-ə on dəqiqə qalmış məni kabinetinə dəvət etdi. Dedi ki, ölkə rəhbərinin köməkçisi zəng edərək məlumat verib, Heydər Əliyev saat 11-də zəng vuracaq. Elə də oldu. Respublikanın rəhbəri ilə redaktor arasında söhbət xeyli çəkdi. Ağababa müəllim qəzetdə verilməyən çox ciddi faktları da birinci katibin diqqətinə çatdırdı. Heydər Əliyev kollektivə, o cümlədən, məqalə müəllifinə təşəkkürünü bildirdi. Bir neçə gün sonra Heydər Əliyevin göstərişi ilə Bakı Şəhər Partiya Komitəsinin büro iclasında “Restoranda orkestr çalır...” məqaləsi geniş müzakirə olundu. Yüzdən çox erməni işdən çıxarıldı, bəzi musiqi kollektivləri tamamilə ləğv edildi. Mənə 27 yaşımda “Qızıl qələm” mükafatı verildi.

Bunun ardınca qəzetimizdə milli suvenirlər, ərzaq məhsullarının etiketlərində erməni dilində yazılar, laqeydlik ucbatından müxtəlif xarakterli mədəniyyət abidələrinin dağıdılması, Respublika Xalq Yaradıcılığı Evinin “sandıq ədəbiyyatı” və başqa bu kimi problemlər barədə yazılar dərc olundu. Bir ay ərzində müvafiq nazirlik və qurumlar, rayon partiya komitələri ciddi tənqidlərdən sonra görülən tədbirlər barədə mütləq redaksiyaya cavab verirdilər və o cavablar da “Kommunist”in səhifələrində yer alırdı.

Ədəbiyyat, mədəniyyət və incəsənətlə yanaşı, siyasət, iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, tikinti, səhiyyə və digər sahələrin də inkişafı problemləri, eləcə də, mənəvi-əxlaqi dəyərlərin uca və müqəddəs tutulması da qəzetin yaradıcılıq məramı və qayəsinə daxil idi.

Redaksiyanın gözəl ənənəsi olan xalqla mənəviyyat körpüsünü daha da gücləndirmək funksiyası bu gün də “Xalq qəzeti”nin əsas məramlarından biridir. Əlli ildən çoxdur özümə həmişə doğma bildiyim redaksiyanın çağdaş kollektivini qəzetin 104 yaşı münasibəti ilə təbrik edir, bu şərəfli işdə onlara yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

***İlham RƏHİMLİ,***
***“Xalq qəzeti”nin***
***sabiq şöbə müdiri, professor***

# Anadilli mətbuatın avanqardı

**Mətbuat ruhum ömür yolumdur. Əmək fəaliyyətimin 35 ili “Kommunist” qəzeti redaksiyasında keçib. Hələ tələbəlik illərimdən bu qəzetdə yazılarım dərc edilirdi. Bu qəzetdə işləmək mənim ən ülvi arzum idi. Belə istək çoxlarının ürəyindən keçirdi.**



“Kommunist” qəzeti respublikanın 1 nömrəli mətbuat orqanı idi. Geniş ictimaiyyət də, bütün idarəedici orqanlar da bu qəzeti Azərbaycan mətbuatının bayraqdarı qəbul edirdilər. Nədən ki, qəzetin ideya-siyasi səviyyəsi zamanın, həm də xalqın tələblərinə tam uyğun idi. Bu səbəbdən idi qəzet həftənin altı günü hər dəfə yarım milyon həddində tirajla nəşr olunurdu (Rəsmi məlumat: 1981-ci ildə SSRİ-nin müttəfiq respublikalarında çap olunan ən yüksık tirajlı gündəlik qəzetlərin siyahısı belə sıralanırdı: Birinci yerdə Kiyevdə çıxan “Pravda Ukraina” qərarlaşmışdı – tirajı 560 min nüsxə idi. İkinci yerdə Bakıda nəşr edilən “Kommunist” qəzeti idi – gündəlik tirajı 468 min nüsxə ... Yerevanda isə ən çox tirajı olan rus dilində çıxan “Kommunist” idi – gündəlik 52 min nüsxə ilə).

Hər il respublikanın hər tərəfindən, keçmiş SSRİ-nin müxtəlif yerlərindən, xarici ölkələrdən, qalaq-qalaq, on minlərlə məktub alırdı “Kommunist” redaksiyası. Məktublar şöbəsi onları diqqətlə çeşidləyir, ayda bir neçə dəfə “Məktublar səhifəsi” verilirdi. Redaksiyaya məktub axınının belə çox olması insanların bu qəzetə inamının göstəricisi idi. Məktubların böyük əksəriyyəti yerlərdəki haqsızlıqlardan, qanun pozuntularından, dolanışıq çətinliklərindən, digər mənfi hallardan bəhs edirdi. Yəni, şikayətçilərin əli hər yerdən üzüləndən sonra, məktubla axırıncı ümid yeri kimi inandıqları-güvəndikləri “Kommunist”ə üz tuturdular. Çünki “Kommunist” qəzeti radaksiyasında müraciətlərə diqqət güclü idi. Yazılanlara “hər məktubun arxasında bir canlı insan durur” amalı ilə yanaşılırdı.

Bir qayda olaraq, dövrünün müxtəlif cəhətləri, həyatı əhəmiyyətli qanun və qərarlar bu qəzetdə dərc edilir, bəzən ümumxalq müzakirəsinə çıxarılırdı. Dövlət idarəçiliyinin bir vəsiləsinə çevrilmişdi bu qəzet. Hər zaman Azərbaycanla əlaqədar çoxyönümlü məsələlərə dərhal öz münasibətini bildirirdi. Milli dilin saflığı, orfoqrafiya qaydalarının tənzimlənməsi, bir sıra əcnəbi sözlərin dilimizdə qarşılığının mətbuata çıxarılması uğrunda mübarizədə qəzet öncül mövqedə olub. SSRİ-nin son Konstitusiyasının layihəsinin müzakirəsində Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili qəbul olunması uğrunda öz səhifələrində geniş müzakirələr açmışdı.



Bunları yazmaqda məqsədim bildirməkdir ki, bu qəzetin adı “Kommunist” olsa da, amalı-məsləyi dövlətçiliyə, azərbaycançılığa, xalqa sədaqətlə xidmət idi. Bunu belə bir fakt da sübut edir: Qəzetin 10-dan çox şöbəsindən – sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı, elm və təhsil, ədəbiyyat və incəsənət, məktublar və kütləvi iş, xəbərlər, yerli mətbuat, idman, elanlar və sairədən fərqli olaraq, adını çəkmədiyin təkcə bir şöbə partiya məsələlərini işıqlandırırdı. “Kommunist” partiya mətbuatından üstün olaraq, ictimai-siyasi, kütləvi, başqa sözlə, “xəlqi” qəzet idi. Heç də təsadüfi deyil ki, “Kommunist”in davamçısı “Xalq qəzeti” adlanır.

Belə siqlətinə görəydi ki, bu qəzeti xalq sevirdi. Onu hər yerdə gözləyirdilər. Elm-incəsənət adamları, şair və yazıçılar, ictimai xadimlər, rəhbər vəzifəlilər müntəzəm olaraq bu qəzetdə çıxış edirdilər. Onun redaksiyasında çalışmaq arzusunda olanlar isə saysız-hesabsız idi. Biri də mən idim...

1970-ci ilin dekabr ayında Bakıdakı digər respublika qəzetləri redaktorlarının şirin vədindən fərqli olaraq “Kommunist”in redaktoru Ağababa Rzayev mənə şirin vəd vermədi, qətiyyətlə və konkret dedi: Get, Bakı şəhərində pasport qeydiyyatına düş, gəl, səni işə götürüm! Bu müşkül işi həll etmək üçün 10 günə qədər vaxt itirdim. Fəqət, Ağababa müəllim sözünün üstündəydi. Bu redaksiyada işə düzəlmək istəyində olan çoxsaylıların adam-nəfərinə, tapşırıqlara məhəl qoymadan mənim kimi kimsəsizi təmənnasız surətdə işə qəbul etdi... Sonralar “Kommunist”in başqa bir redaktoru Rəşid Mahmudovdan da sonsuz qayğı və etimad görmüşəm. Məkanları cənnət olsun, bu unudulmaz nəcib insanların!

Adlarını sadaladığım bu iki mahir, fədakar jurnalistdən savayı, Cəmil Əlibəyov, Ramiz Əhmədov, Tofiq Rüstəmov, onlardan illərlə əvvəl İsrafil Nəzərov, Xasay Vəzirov, Əli Vəliyev daha bir neçə ictimai-siyasi xadim “Kommunist”ə cəfakeşliklə redaktorluq ediblər. Cəfakeş ifadəsini ona görə işlədirəm ki, onlar çətin, riskli olsa da, xalq mənafeyini partiya təzyiqlərinə qurban vermədən qoruya biliblər. İndi dönüb keçmişə nəzər salanda bəlli olur ki, məqsədi-məramı partiyadan çox doğma xalqına xidmət etmək olub bu redaktorların. Belələrinin sayəsində “Kommunist” qəzeti dövrünün çoxyönümlü, mürəkkəb, qalmaqallı, məşəqqətli zamanında millətin tərəfində durub, imkanı daxilində öz obyektiv, ədalətli sözünü deyib.

1991-ci ilin 19 avqustunda Moskvada SSRİ-nin bir qrup rəhbərinin “Qorbaçov yenidənqurmasına” qarşı uğursuz dövlət çevrilişi cəhdi müqabilində avqustun 24 və 25-də Sov.İKP MK-nın son plenumu çağırıldı. Plenum Sovet İttifaqı Kommunist Partiyasının ləğv edilməsi qərarına gəldi. Buna müvafiq olaraq Azərbaycan Kommunist Partiyası da ləğv edildi. Ölkədə “kommunist” sözü “xalq düşməni” ifadəsinin sinoniminə çevrildi. Uzun illər xalqa, dövlətçiliyə sədaqətlə xidmət etmiş, partiya mətbuatından daha çox kütləvi-ictimai nəşr olan “Kommunist” qəzeti də məhz bu zaman bütünlüklə xalqın tərəfinə keçdi. Nə yaxşı ki, “Kommunist” qəzetini bugünkü “Xalq qəzeti” əvəzlədi...

***Rafiq HƏSƏNOV,***
***“Xalq qəzeti”nin***
***sabiq xüsusi müxbiri***

BEYNƏLXALQ HƏYAT

# Erməni jurnalistin “stəkanda fırtına” yaratmaq istəyi

**Əlbəttə, azərbaycanlıları ermənilərlə müqayisə etmək böyük xətadır. İki xalqın xarakterində o qədər fərq var ki, sadalamaqla bitməz. Tarixi faktlar da təsdiqləyir ki, azərbaycanlılar hər zaman digər xalqlara xoş münasibət göstəriblər. Ermənilər isə, tam əksinə, Qafqaz regionuna köçürüldükdən sonra bütün qonşularına xəyanət ediblər, onlara qarşı torpaq iddiaları irəli sürməklə yanaşı, zaman-zaman soyqırımı siyasəti də yürüdüblər. Bütün bu bəd əməllərinin fonunda ermənilər həm də elementar həya nədir, bilmirlər. Əslində, bilirlər, sadəcə, özlərini tülkülüyə vurub arzuladıqları nəticəni əldə etmək istəyirlər. Ötən cümə erməni jurnalistinin İranın yeni səfirindən arzuladığı ifadələri qoparmaq üçün nümayiş etdirdiyi həyasızlığı nümunə göstərmək olar.**



Aydındır ki, İranın regionda öz maraqları var və buna uyğun da siyasət yürüdür. Tehranın İrəvanla münasibətlərini necə inkişaf etdirmək istədiyi də onun daxili işidir. Biz qonşularla mehriban dostluq və qarşılıqlı hörmətə söykənən siyasəti alqışlayırıq. Amma onu da yüksəkdən bildiririk ki, milli maraqlarımıza toxunan istənilən siyasi fəaliyyətə qarşıyıq və qonşularla münasibətlərin inkişafı üçüncü tərəfə zərər vurmamalıdır. Son vaxtlar da İranın Azərbaycanla münasibətlərində yaranmış gərginliyin aradan qaldırılması ilə bağlı səsləndirdiyi bəyanatlar və atdığı addımlar iki qonşu ölkə arasında münasibətlərin regional əməkdaşlığın ruhuna uyğun inkişaf edəcəyinə ümidləri artırır. Tehran-Bakı xəttində daim gərginliyin olmasını arzulayan ermənilər isə hər vəchlə aranı qatmağa çalışır və stəkanda fırtına yaratmağa can atırlar. İranın Ermənistandakı yeni səfirindən alınan müsahibə də məhz belə düşünməyə əsas verir.

Diqqət yetirin, erməni jurnalist sual verir: “Cənab səfir, İrəvanda keçirilən iqtisadi sərgi zamanı qeyd etdiniz ki, İran Ermənistanın ərazi bütövlüyünü dəstəkləyir və bu istiqamətdə addımlar atacaq. Hansı addımları nəzərdə tutursunuz?”. İlk baxışda normal sualdır, ancaq qoyuluşu təhrikedicidir. Yəni İran Ermənistanı qorumaq üçün hansı addımları atmaq istəyir? Sanki qarşı tərəfi təhrik edir ki, atılması ehtimal olunan konkret addımları sadalasın, Arazın bu tayına müəyyən mesajlar göndərsin. Əslində, erməni jurnalist də postmüharibə sindromu yaşayan cəmiyyətin üzvüdür və ondan başqa davranış sərgiləməyi gözləmək də mənasızdır. İran səfiri də ranqı imkan verdiyi səviyyədə cavab verməyə çalışıb. Səfir Mehdi Sobhani vurğulayır ki, İran artıq bu addımları atmağa başlayıb: “Biz Ermənistanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik və istənilən sərhəd dəyişikliyinin əleyhinəyik. Biz kommunikasiya marşrutlarının açılmasının əleyhinə deyilik və Azərbaycana da belə marşrutlar vermişik. Amma onların hamısı ərazisində yerləşdikləri ölkələrin nəzarəti altında olmalıdır, xüsusən də Ermənistan məsələsində”. İran səfirinin bu fikirlərində qeyri-adi heç nə yoxdur, beynəlxalq qanunlar da tələb edir ki, dövlətlər bir-birinin ərazi bütövlüyünü dəstəkləsinlər. İran da istisna deyil və səfirin ərazi bütövlüyü məsələsində səsləndirdiyi fikirlər diplomatik qaydalar çərçivəsindədir.

Amma cavabdan razı qalmayan erməni jurnalistin verdiyi ikinci sual iranlı səfiri növbəti dəfə diplomatik bacarıqlarını sərgiləməyə vadar edib. “Bəs Azərbaycan “Zəngəzur dəhlizi” adlanan ərazini güc yolu ilə açmağa cəhd etsə, İran nə edəcək, Ermənistana hansı yardımı göstərə biləcək?” sualına Mehdi Sobhani kifayət qədər tarazlı cavab verməyə çalışıb: “Artıq dediyim kimi, biz kommunikasiya kanallarının açılması prosesini dəstəkləyirik, lakin onlar Ermənistan hökumətinin nəzarəti altında olmalıdır. Güc heç nəyi dəyişməyəcək”. Yox, bu cavab da həmişə narazı ermənini qane etməyib. Jurnalistin də rəhbərləri kimi, diplomatik etikanın nə olduğundan xəbəri yoxdur. Dəridən-qabıqdan çıxır ki, iranlı səfir barmağını havada silkələyərək, hamıya xəbərdarlıq etsin: Ermənistan Tehranın qırmızı cizgisidir.

Təbii ki, səfir Mehdi Sobhani Tehranın son zamanlar Azərbaycanla münasibətlərində gərginliyin aradan qalxmasına çalışmasından xəbərdardır və nəyin necə deyilməsini gözəl bilir. Amma erməni jurnalistin müsahibinin diplomatik cavabları maraqlandırmır, o, istəyir ki, İran səfiri Ermənistanı razı salacaq cavab versin. Buna görə də, jurnalist etikasını bir kənara ataraq ilk iki sualını üçüncü dəfə başqa formada səsləndirib: “İran belə bir hadisənin (yəni Azərbaycan hücum edərsə-red.) zorla qarşısını almaq üçün addımlar atacaqmı?”.

Maraqlıdır, görəsən, bu sualı eşidəndə iranlı səfir düşündümü ki, necə həyasız adamların əhatəsinə düşüb? Axı elementar siyasi bilikləri olan şəxs də onun nə demək istədiyini anlamağda çətinlik çəkməməlidir. Adam deyir ki, İran qonşu ölkələrin beynəlxalq sənədlərlə müəyyənləşmiş ərazi bütövlüyünü tanıyır və buna dəstək verəcəyini bildirir. Axı bundan artıq nə demək olar? Buna görə də, iranlı səfirin “Mən deyəndə ki, İran Ermənistanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyəcək, hər şey aydın olur” cavabında yüngül qıcığın olduğu sezilir, həm də erməni jurnalistə sanki demək istəyir: Sən nə həyasız adamsan, eyni mahiyyətli sualı üç dəfə mənə verirsən!

Bəzən deyirlər ki, həyasızlıq iknci xoşbəxtlikdir, bu kəlam daha çox ermənilər haqqında səsləndirilir. Buna görə də, iranlı səfirin diplomat kimi xidməti müddətində erməni həyasızlığına alışmasını tövsiyə edirik.

*S.ELAY, “Xalq qəzeti”*

İDMAN

**Bakıda atıcılıq üzrə 53-cü dünya çempionatında dünən maraqlı növlərdən olan 300 metr məsafəyə tüfəngdən atəş açma üzrə kişilər arasında ən güclülər müəyyənləşib.**

Macarıstan təmsilçisi İstvan Peni bu növdə ən dəqiq nişançı olduğunu sübut edib. O, ikinci yerin sahibi norveçli Andre Kim Landla eyni miqdarda - 587 xal toplasa da, əlavə göstəricilərə görə həmkarını üstələyib. ABŞ atıcısı Timoti Şerri isə 3-cü yeri tutub. Komanda yarışında Avstriya yığması qızıl medal qazanıb. İsveçrə gümüş, Norveç isə bürünc medala yiyələnib.




Mükafatlandırma mərasimindən sonra media nümayəndələri ilə təəssüratlarını bölüşən İstvan Peni 300 metr məsafəyə tüfəngdən atəş açma yarışlarının həmişə çətin keçdiyini bildirib: “Normal yarışlardan fərqli olaraq, bizim tüfəngimizin çəkisi ağır olur. Digər növlərə müqayisədə biraz çətinlik yaradır. Amma hədəfin ölçüsü biraz böyük olur.

# “Hər gəlişimdə inkişaf edən gözəl şəhər görürəm”

## Bakıda dünya çempionatının növbəti qızıl medalını Macarıstan atıcısı alıb

Macarıstanlı atıcı olimpiya növü olmamasına rəğmən bu kateqoriyanı seçməsinin səbəbini açıqlayıb: “10, 25 və 50 metr məsafəyə atəş açma növlərində də iştirak etmişəm. Ümumiyyətlə, atıcılıq mənim həyatımdır. Silahı tutmaq, onunla davranmaq, barıtın qoxusu... Bunların hamısı mənim üçün stimul və əyləncədir”.

Digər yarış iştirakçıları kimi Macarıstan atıcısı da paytaxtımız və Bakı Atıcılıq Mərkəzi barədə ağızdolusu danışıb: “2018-ci ildə dünya çempionatında gümüş, ötən il Misirdə keçirilən mundialda isə bürünc medal qazanmışdım. Nəhayət, Bakıda qızıl medal mənim oldu. Çox sevinirəm ki, maraqlı, lakin gərgin mübarizə şəraitində keçən yarışda qalib oldum. Artıq kolleksiyamda bir dəst medal var.

Bakıya ilk dəfə 2015-ci ildə gəlmişəm. Burada hava tez-tez küləkli olur. Bu da təbii prosesdir. Çünki Bakı küləklər şəhəridir. Amma paytaxt və atıcılıq mərkəzi çox gözəldir. Hər gəlişimdə inkişaf edən gözəl şəhər görürəm. Bakı hər dəfə dəyişir. Azərbaycan Atıcılıq Federasiyasının fəaliyyətinə də toxunmaq lazımdır. Burada böyük işlər görülür. Yaradılan mərkəz sayəsində bu idman növünün inkişafı yönündə addımlar atılır. Belə yarışların yüksək səviyyədə təşkili bunu sübut edir”.

Qeyd edək ki, dünya çempionatında Azərbaycan təmsilçiləri də uğurla çıxış edirlər. 25 metr məsafəyə mərkəzə atəş tapançasından atış növündə atıcılarımız Nigar Nəsirova qızıl, Nərmin Səmədova gümüş medala sahib olub. 25 metr məsafəyə tapançadan standart atəş açma yarışında isə Azərbaycan komandası ikinci yeri tutub.

Yarış sentyabrın 1-dək davam edəcək.

*Leyla QURBANOVA, “Xalq qəzeti”*

# Koreya yarımadasında “hərarət” artır

## Pxenyanın hərbi fəallığının arxasında nə gizlənir?

**Son həftələr Koreya yarımadasındakı gərginlik 1953-cü ildə Şimal və Cənub arasında hərbi əməliyyatların bitməsindən bəri ən yüksək həddə çatıb. Şimali Koreya lideri Kim Çen In orduya “müharibəyə hazırlaşmaq” əmri verib. Bundan başqa, Pxenyan Rusiya və Çinlə hərbi əməkdaşlığı gücləndirib, müntəzəm ballistik raket sınaqları keçirib və iki dəfə hərbi kəşfiyyat peykini buraxmağa uğursuz cəhd edib. ABŞ, Cənubi Koreya və Yaponiya liderlərinin son sammiti də KXDR-in artan fəallığına həsr olunub: müttəfiqlər Şimali Koreya təhlükəsinə qarşı mübarizə aparmağa razılaşıblar. Bəs 70 ildən sonra Koreya yarımadasında yenidən müharibə alovlana bilərmi və bu böhranın danışıqlar masası arxasında aradan qaldırılması ehtimalı nə dərəcədə yüksəkdir?**

Avqust ayında Kim Çen In atıcı silahlar, artilleriya, qanadlı raketlər və pilotsuz təyyarələr istehsalı üçün bir neçə böyük fabrikə baş çəkib və silah istehsalını artırmağı əmr edib. İstehsal edilən raketlərin bir hissəsi dərhal sınaqdan keçirilib. Belə ki, Şimali Koreya tərəfindən raket buraxılışlarının tezliyi 2017-ci ildən bəri ən yüksək səviyyəyə çatıb. Cari ilin əvvəlindən indiyədək Pxenyan 100-dən artıq raket sınağı həyata keçirib. Mütəxəssislərin hesablamalarına görə, atılan raketlərin bəziləri Vaşinqtona 30 dəqiqədən az müddətdə çata bilər. Bundan əlavə, KXDR-in nüvə proqramında da uğur əldə etdiyi iddia olunur. Məlumat verilir ki, mart ayında Şimali Koreya mətbuatında yayılan şəkillərə görə, yerli alimlər Cənubi Koreyadakı hədəfləri vura bilən taktiki raketlərlə təchiz olunan daha kiçik nüvə başlığı yarada biliblər.

Avqustun 10-da Şimali Koreya lideri ölkənin hərbi komandanlığında dəyişiklik edib, hərbi planların təkmilləşdirilməsi barədə göstəriş verib və ordunun ön xətt bölmələrinin gücləndirilməsi haqqında sərəncam imzalayıb. Onlar, lazım gələrsə, “inamlı hərbi-strateji və taktiki üstünlüklə düşmənləri məhv etməyi” bacarmalıdırlar. Əslində, Şimali Koreyanın narahatlıqları əsassız deyil. İyulun sonunda ikinci Amerika nüvə sualtı qayığı Cənubi Koreya limanına daxil olub. Koreya Respublikasının Prezidenti Yun Sok Yeol isə bir neçə ay əvvəl bildirmişdi ki, ABŞ-ın Koreya yarımadasına ödəyüş başlıqlarını yerləşdirməkdən imtina edəcəyi təqdirdə ölkəsi öz nüvə silahlarını qısa zamanda inkişaf etdirə biləcək. Doğrudur, bir neçə gün sonra Cənubi Koreya hakimiyyəti prezidentin bu bəyanatını geri götürsə də, onun Pxenyana təsir göstərdiyibi bildirirlər. Bunu Qlobal nüvə risklərini izləyən Çikaqo Universitetinin Atom Alimlərinin Bülleteni jurnalı da özünün analitik məqaləsində vurğulayıb: “Dünya liderləri nüvə ritorikasından qaçmağa səy göstərməlidirlər. Əks halda, belə şərhlər nüvə silahının yayılmaması dövrünün sona çatmasına və daha ciddi mərhələnin başlanmasına səbəb ola bilər”.

Siyasi analitiklərin sözlərinə görə, Pxenyanı xüsusilə narahat edən məsələ ABŞ, Cənubi Koreya və Yaponiya arasında üçtərəfli alyansın möhkəmlənməsidir. Avqustun 18-də hər üç ölkə liderləri Kemp Devidddəki ABŞ hərbi bazasında görüşmüş, Şimali Koreyadan artan təhlükəyə birgə müqavimət göstərməyə razılaşmış və “azad və dinc bir Koreya yarımadasına” ümid etdiklərini bildirmişdilər. Ancaq Pxenyanda tam əksini düşünürlər, KXDR vurğulayır ki, sözügedən sammit regionda müharibə risklərini artırır. Koreya Mərkəzi Xəbər Agentliyinin yaydığı bəyanatda vurğulanır ki, “Respublikaya qarşı düşmən qüvvələrin ehtiyatsız hərbi qarşıdurmasının getdikcə daha açıq xarakter aldığı indiki vəziyyət ordumuzdan müharibəyə daha fəal və üstün cavab verməyi, ardıcıl və mükəmməl hərbi hazırlığa malik olmağı tələb edir”. ABŞ və Cənubi Koreyanın qısa müddət sonra başlayan birgə təlimləri də Pxenyanı narahat edir. Şimali Koreya rəhbəriyi belə təlimləri hücum üçün məşq kimi qiymətləndirir və buna növbəti raket buraxılışı ilə cavab verir. Avqustun 21-də, hərbi manevrlərin başlandığı gün Kim Çen In Şimali Koreya donanmasının ən yeni korvetini yoxlamağa gələrək, qanadlı raketin buraxılmasına rəhbərlik edib.



Eyni zamanda, Şimali Koreya hakimiyyəti əsas tərəfdaşları - Pekin və Moskva ilə əlaqələr qurur. İyulun 27-də Rusiyanın müdafiə naziri Sergey Şoyqu Pxenyanda 1950-1953-cü illər Koreya müharibəsində atəşkəsin əldə olunmasının 70 illiyinə həsr olunmuş hərbi paradda iştirak edib. Pxenyanda rusiyalı nazir Kim Çen Inla şəxsən görüşdü - bu, Şimali Koreya liderinin koronavirus pandemiyası başlayandan bəri xarici qonaqla ilk görüşü idi. Xüsusi təşkil olunmuş qəbulda Şimali koreyalı həmkarı Kang Song Nam “Rusiya ordusunun və xalqının ölkənin suverenliyini və təhlükəsizliyini qorumaq üçün ədalətli mübarizəsini” dəstəklədiyini və Şoyqunu Şimali Koreya ordusunun “anti-imperialist mübarizənin bir səngərində əməkdaşlığı və həmrəyliyi daha da gücləndirəcəyinə” əmin etdi. Rusiyalı nazirin silah sərgisinə səfəri Qərb müşahidəçilərini xəbərdar etdi: KİV vaxtaşırı Rusiyanın Şimali Koreyadan sursat aldığını və daha sonra Ukraynadakı hərbi əməliyyatlarda istifadə etdiyi barədə xəbər verir. Həm Moskva, həm də Pxenyan bu məlumatı təkzib edir. Rusiyanın KXDR-dəki səfiri Aleksandr Matseqora hətta bəyan etdi ki, Pxenyan Moskvaya heç bir mərmi vermir, çünki o, özü də “müharibədən əvvəlki vəziyyətdədir”.

Siyasi müşahidəçilərin fikrincə, Pekin və Moskva ilə hərbi-texniki əməkdaşlığı gücləndirməklə Şimali Koreya ABŞ, Cənubi Koreya və Yaponiyanın artan üçtərəfli alyansına qarşı tarazlıq yaratmağa çalışır. Stokholm Təhlükəsizlik və İnkişaf Siyasəti İnstitutunun (ISDP) baş elmi işçisi Sansu Li iddia edir ki, Kim Çen Inın son davranışı və onun potensial hərbi əməliyyatlardan bəhs etməsi Pekinlə razılaşdırılır və ABŞ-Cənubi Koreya hərbi yaxınlaşmasına yönəlmiş strateji əməkdaşlığın bir hissəsidir. Britaniyalı ekspert Robert Uinstenli-Çesters öz növbəsində vurğulayır ki, “Şimali Koreya təhlükəsi” ABŞ-ın Tayvanı müdafiə etmək üçün istifadə edə biləcəyi resursları azaldır. O, Rusiya və Şimali Koreya arasında əməkdaşlığın iqtisadi komponentinin vacibliyinə də diqqət çəkir. Britaniyalı ekspert xatırladır ki, Şimali Koreyanın Rason limanı Rusiyaya Sakit okeana marşrut təqdim edir. Bu, həm də Pxenyan üçün mühüm gəlir mənbəyi rolunu oynayır: beynəlxalq sanksiyalar Rusiya kömürünün Rason vasitəsilə digər ölkələrə tranzitinə şamil edilmir.

Bununla belə, Sansu Li bütün hərbi hazırlıqlara baxmayaraq, Kim Çen Inın Koreya yarımadasında yeni müharibəyə çevrilə biləcək hərbi əməliyyatlara qərar verəcəyi ehtimalının az olduğunu düşünür. Bununla yanaşı, ekspertlər xatırladırlar ki, Koreya yarımadasında hərbi gərginliyin qəsdən artırılması Kim Çen Inın ABŞ-ı daha rahat şərtlərlə danışıqlara məcbur etmək üçün dəfələrlə yararlandığı etdiyi texnikadır. Məsələn, 2017-ci ildə gərginliyin davam etdiyi zamanda Kim Çen In ABŞ-ın sabiq prezidenti Donald Tramp ilə üç dəfə görüşmüşdü. Liderlər Koreya yarımadasının nüvəsizləşdirilməsi ilə bağlı razılığa gələ bilməsələr də, aralarında şəxsi münasibətlər yaranmışdı. Hətta bu istiləşmədən sonra Şimali Koreya lideri nüvə sınaqlarına könüllü moratorium da qoymuşdu. Buna görə də, ekspertlər düşünürlər ki, ABŞ-da yeni prezident seçkilərindən sonra Vaşinqton-Pxenyan danışıqları intensivləşəcək və Koreya yarımadasındakı hadisələrin sonrakı inkişafına Ağ evə sahib olacaq liderin siyasətindən asılı olacaq.

*Səbuhi MƏMMƏDOV, “Xalq qəzeti”*

REPLİKA



# “Qorxulu” ağaclar və “qorxubilməz” adamlar

**Dünyamızın oksigen qaynağı, Yer üzünün atlas libası olan yaşıllıqlar cənnət timsalıdır. Lakin bəzən ağaclar təhlükə mənbəyinə də çevrilir. Buna onların quruması, düzgün formada inkişaf etməməsi və vaxtında budanmaması səbəb olur.**

Təəssüf ki, Bakıda, hətta mərkəzi küçələrdə də təhlükə saçan ağaclara rast gəlmək mümkündür. Paytaxtımızda budaqları yolun hərəkət hissəsinə çıxmış, qurumuş, əyri bitmiş çox sayda ağac olsa da, onların budanması unudulub. Elə ki, güclü külək əsir, qurumuş ağaclar aşır, yaşıllıq təsərrüfatı işçilərinin “vəzifə borcları” yadlarına düşür. Lakin bir müddət sonra yenə bu məsələ unudulur.



Ötən ay İçərişəhərlə qonşuluqda, Filarmoniya bağında iri gövdəli ağac kökündən qoparaq aşmışdı. Bu fakt kifayət etməli idi ki, şəhərdəki digər təhlükə riskli ağaclar da aşkar edilib, ya kəsilsin, ya da başqa bir yerə köçürülsün.

Apardığımız müşahidələr onu göstərdi ki, bu problem əsaslı həllini gözləyir. Əlibəy Hüseynzadə küçəsində yerləşən “İstanbul Təhsil Mərkəzi”nin həyətinə doğru, Şamil Əzizbəyov küçəsində yolun hərəkət hissəsinə doğru əyilmiş, Dənizkənarı Bulvarın yaxınlığında isə qurumuş ağaclar təhlükə yaradır. Ələvsət Quliyev küçəsindəki əyri bitmiş ağac da narahatlıq yaradır. Bu iri gövdəli ağac kəskin şəkildə yola əyilib, hər an aşa bilər. Külək olmasa belə, bir müddət sonra öz ağırlığına tab gətirməyəcək. Onun böyük olması və yaxınlıqda yaşayış binalarının yerləşməsi baş verə biləcək faciənin miqyasını artırır.

Məsələ ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə əlaqə saxladıq. Bizə cavab verildi ki, ağacların kəsilməsi və ya köçürülməsi elə də asan məsələ deyil. Nazirliyin mətbuat katibi İradə İbrahimova əsas cavabdeh qurumların bələdiyyələr və yaxud yerli icra hakimiyyətləri olduğunu bildirdi: “Onlar mütəmadi olaraq araşdırma aparmalı və belə ağaclar barədə nazirliyə məlumat verməlidirlər. Bundan sonra nazirlik əməkdaşlarını ağacın yerləşdiyi əraziyə göndərməli, əvəzinə yenisinin əkilməsi şərti ilə mövcud ağacın kəsilməsi və yaxud köçürülməsi barədə rəy verilməlidir. Sonda qərarın icrası üçün müvafiq rayonun Yaşıllaşdırma Təsərrüfatı Birliyinə müraciət edilməlidir”.

Yəqin ki, problemin mənbəyi elə bu uzun-uzadı prosesdir. Bütün səlahiyyət bir quruma olsa, işlər həm daha operativ yerinə yetirilər, həm də bu sahədə məsuliyyətin konkret olaraq kimin üzərinə düşdüyü bəlli olar.

Hələlik isə “qorxulu” ağaclar, “qorxubilməz”, məsuliyyətsiz adamların “kəraməti” ilə ətraf üçün təhlükə törətməkdədir.

*Rüfət MƏHƏRRƏMOV*

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 183 (30299) 27 avqust 2023-cü il, bazar

veb-sayt: www.xalqqazeti.az


## İdman xəbərləri

# Avropa birinciliyində 2 qızıl, 2 bürünc medal

**Sloveniyanın Maribor şəhərində məktəbli boksçular arasında Avropa birinciliyində Azərbaycan millisi 2 qızıl və 2 bürünc medal qazanıb.**




Yığmanın heyətində Şahin Aslanov (52 kq) və Səftər Məmmədzadə (90 kiloqram) Avropa çempionu tituluna yiyələniblər. Komandamızın aktivinə bürünc medalları isə Adil Zalov (63 kiloqram) və İsmayıl Vəliyev (70 kiloqram) yazdırıblar.

32 ölkədən 380 idmançının qatıldığı yarışda 4 medal qazanan oğlanlardan ibarət milli Avropada dördüncü yeri tutub.

Qeyd edək ki, 2022-ci ildə Türkiyədəki analoji yarışda komandamız 1 qızıl, 1 gümüş və 3 bürünc medal əldə etmişdi.

# Tarixi nəticə




**Xorvatiyanın paytaxtı Zaqrebdə yeniyetmələr arasında keçirilən cüdo üzrə dünya çempionatında komandamız tarixi nəticə qazanıb.**

Yarışda uğurla çıxış edən Azərbaycan yığması 2 qızıl, 3 gümüş, 3 bürünc mükafat qazanaraq ümumi komanda hesabında birinci yeri tutub.

Komandamızın aktivinə qızıl medalları Nihad Məmişov (50 kiloqram) və Xədicə Qədəşova (52 kiloqram) yazdırıblar. Məhəmməd Məmişov (50 kiloqram), Məhəmməd Musayev (60 kiloqram) və Əbil Yusubov (66 kiloqram) gümüş, Mirxaliq İskəndərov (55 kiloqram) və Süleyman Şükürov (73 kiloqram), Ramazan Əhmədov (+90 kq) isə bürünc medal qazanıb.

# Taekvondo yığmamızın qələbəsi

**Estoniyanın paytaxtı Tallində taekvondo üzrə böyüklər arasında Olimpiya çəki dərəcələri üzrə Avropa çempionatında Azərbaycan millisi aktivinə daha bir medal əlavə edib.**




Yığmamızın heyətində Həmidreza Badrialibadi fəxri kürsüyə yüksəlib. 80 kiloqramdan yuxarı çəkidə dayanqa çıxan taekvondoçumuz gümüş medala yiyələnib.

Bundan əvvəl komandamızın digər üzvü Cavad Ağayev (68 kq) də 2-ci yeri tutub.

Estoniyada keçirilən gənclərin Avropa çempionatında da yığmamız hələlik 2 medal qazanıb. Belə ki, Səlimə Quliyeva (42 kiloqram) gümüş, Məhəmməd Həsənli (45 kiloqram) bürünc medala sahib olublar.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

## Texnologiya yenilikləri



# Süni intellektə qlobal baxış

***Böyük Britaniyanın Baş naziri Rişi Sunakın təşəbbüsü ilə süni intellekt təhlükəsizliyinə həsr edilmiş qlobal sammit bu ölkədəki "Bletçli park" adlı malikanədə keçiriləcək.***

Qeyd edək ki, İkinci Dünya müharibəsi zamanı almanların "Enigma" adlı məşhur şifrələmə cihazının sirri məhz bu malikanədə çalışmış mütəxəssislər tərəfindən çözülmüşdü. Tədbir noyabr ayında baş tutacaq. Sammitə müxtəlif dövlətlərin və aparıcı süni intellekt şirkətlərinin təmsilçiləri və mütəxəssisləri dəvət olunublar.

Sammit çərçivəsində süni intellekt texnologiyası ilə bağlı risklərin beynəlxalq səviyyədə koordinasiya edilməsi müzakirə ediləcək. Baş nazir sammitin keçiriləcəyi ilə bağlı iyun ayında Vaşinqtona səfəri zamanı anons etmişdi.

*Səadət RZAYEVA, "Xalq qəzeti"*

# "Meta" sistemi redaktə edəcək




***"Meta" şirkəti "Code Llama" adlı yeni süni intellekt sistemini təqdim edib. Sistem böyük dil modelinə əsaslanaraq mütəxəssislər tərəfindən yazılmış kod vasitəsilə mətnlərə səhvləri aradan qaldırılması üçün nəzərdə tutulub. "Code Llama" tədqiqat və kommersiya məqsədləri üçün pulsuz şəkildə təqdim edilir.***

Yeni yaradılan sistem istifadəçinin sorğuları əsasında proqram təminatlı kodları tərtib edə bilir. Bununla yanaşı, istifadəçi bu və ya digər sətirdə hansısa səhvi "qeyd etdiyi" zaman, sistem dərhal onu aradan qaldırır.

"Meta" bildirib ki, "Code Llama" hazırda mövcud olan böyük dil modelləri ilə müqayisədə ən yaxşı nəticələri sərgiləyir. Sistem sınaq zamanı 53,7 faiz xal toplayıb və istifadəçinin sorğusu əsasında proqram təminatı kodunu dəqiq şəkildə tərtib edə bilib.

*Aytən NƏCƏFOVA, "Xalq qəzeti"*

## Sosial şəbəkələrdən seçmələr

# "Bu tabloda bir nəğmə var"



"Facebook"dakı köhnə dostlarımdan biri özünün son paylaşmında sosial şəbəkə izləyicilərinə gördüyünüz bu tablonu təqdim edib. Düşünürəm ki, rəsmdəki qız gözəl və cazibədar olduğu qədər, paylaşımı müşayiət edən sözlər də səmimi və təsirlidir:

***"Bu tabloda bir nəğmə var,***
***oxuya bilmədiyim.***
***Bir şeir var,***
***yaza bilmədiyim.***
***Bir yaşam var-***
***bir də təkrar yaşaya bilmədiyim..."***

Qeyd edək ki, bu paylaşıma bir çox rəylər yazılıb. Kazım İsmayılov adlı bir şəxsin ürək sözləri diqqətimi xüsusilə cəlb etdi: "Bu tabloya baxanda bir də dönə bilməyəcəyim gəncliyim yadıma düşür. İnsanın hər günü, hər bir anı əvəzolunmazdır. Həyat belədir!"

***Təqdim etdi:***
***M.HACIXANLI, "Xalq qəzeti"***

# Aşıq Ələsgər heykəlləşir

**Azərbaycan Rəssamlar İttifaqı nəzdində fəaliyyət göstərən İstehsalat Yaradıcılıq Kombinatının direktoru Baloğlan Hüseynov bildirib ki, görkəmli el sənətkarı Aşıq Ələsgərin abidəsinin bürüncdən tökülməsi prosesi başa çatmaq üzrədir. Onun sözlərinə görə, yaxın 10 gün ərzində bu proses tam yekunlaşacaq.**



Xatırladaq ki, Azərbaycan Prezidentinin müvafiq sərəncamına əsasən, Mədəniyyət Nazirliyi tərəfindən Aşıq Ələsgərin abidəsinin ucaldılması ilə bağlı müsabiqə keçirilib və heykəltəraş, Xalq rəssamı Natiq Əliyevin təqdim etdiyi eskiz qalib olub. Abidənin memarı Malik Babayevdir.

Abidənin Rəşid Behbudov və Bakıxanov küçələrinin kəsişməsində yerləşən parkda ucaldılması nəzərdə tutulur.

*"Xalq qəzeti"*

## Fəsillər ayrıcında...

# Payızın öz səyahəti...

**Artıq payızın gəlməsinə sanılı günlər qalıb. Turistlərin azalması, aviabiletlərin ucuzlaşması payız səyahətinə yol açır.**



Yayda turistlərin səyahət üçün seçdiyi ən populyar ölkələrdən biri Türkiyə oldu. Havanın mülayimliyi sayəsində bu ölkədə payız fəsli də çox gözəl keçir, elə ona görə payız səyahəti üçün Türkiyəni düşünməyə dəyər. Bu ölkə sentyabrda hətta oktyabrın əvvəlində də çimərlik mövsümü üçün idealdır.

Səyahət sentyabrın axırlarına planlaşdırılıbsa, Misirə səyahət etmək olar, çünki burada sentyabr ayı çox isti olur. Bu ölkə qışda küləkli, yayda həddindən artıq isti olsa da, payız aylarında xoş iqlimli olur. Bu da dəniz kənarında dincəlməyə, şəhərin möcüzələrinə tamaşa etməyə imkan yaradır.

Payızın isti ilə başladığı, zəngin tarixi, möhtəşəm memarlıq abidələri olan Birləşmiş Ərəb Əmirliklərinə ( BƏƏ) səyahət turistlərin xoş təəssüratlarla qayıda biləcəyi qida ölkəsidir.

Daha uzun uçuş arzulanırsa, Tayland, Şri-Lanka, Maldiv və ya Seyşel adalarını seçmək olar. Bu ölkələr payızda rahat iqlimi və mənzərəli təbiəti olan gözəl yerlərdir.

*Zülfiyyə ZİYA, "Xalq qəzeti"*

## Sağlamlıq

# "Omeqa-3" xərçəngdən qoruyur



***"Omeqa-3" yağ turşularının geniş yayılan balıq mənşəli növüdür. Sağlamlıq üçün faydalı olan "Omeqa-3" tuna, siyənək, skumbriya kimi yağlı balıqlardan əldə olunan heyvan mənşəli yağ qrupuna daxildir.***

Tərkibində yağ turşuları və D vitamini olan "Omeqa-3" istehlak üçün faydalı sayılır. Otaq şəraitində saxlanılan və maye halda olan bu balıq yağı bütün insanların, xüsusilə də uşaqların asanlıqla istehlak edə biləcəyi qida əlavəsidir.

Elmi araşdırmalar göstərir ki, D vitamini ilə zəngin olan "Omeqa-3" sümükləri möhkəmləndirir, qaraciyərin yağlanmasının qarşısını alır, ürək-damar sistemi xəstəliklərinin profilaktikasında, həmçinin xərçəngin qarşısının alınmasında və iltihabi proseslərin azalmasında rol oynayır.

A vitamini ilə zəngin olan balıq yağı, xüsusilə, uşaqlarda görmə qabiliyyətini, immunitetini gücləndirir və onları qrip, soyuqdəymə kimi xəstəliklərdən qoruyur, onlarda sağlam böyüməni və inkişafı təmin edir.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

## Proqnoz

# Bölgələrdə yağış yağacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən **avqustun 27-də Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-24°, gündüz 26-30° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunu , nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Gündüz yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 27-32°, dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

# Nənə ayını niyə döydü?

**Bu hadisə avqustun 24-nə keçən gecə Çukotka Muxtar Dairəsinin Bilibino şəhərində baş verib. Gecə saatlarında yekəpər ayı 71 yaşlı pensiyaçının evinə girib.**



Yaşlı qadın səs-küy və uğultu səslərinə oyanıb. Qarşısında yırtıcı heyvanı görən nənə özünü itirməyib. O, masanın üstündə olan qəzeti bükub və heyvanı onunla döyüb.

Ayı qorxusundan qaçıb. (Bəziləri iddia edirlər ki, ayı burada "centlmenlik" edib və qarıya rəhmi gəlib). Bundan sonra nənə polisə müraciət edib. Müraciətlə əlaqədar gələn aidiyyati qurum əməkdaşları həyətdə ayının izlərini tapsalar da, onu tuta bilməyiblər. Axtarışlar davam edir.

*"Xalq qəzeti"*


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4868
SİFARİŞ 2125
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00